

Milli azadlıqdan şirin nemət yoxdur!

# Azərbaycan Prezidenti Rusiyada işgüzar səfərdədir



İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün oktyabrın 7-də Rusiya Federasiyasına səfərə gəlib


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

08 oktyabr 2024-cü il, çərşənbə axşamı

№ 184 (6770)

Qiyməti 60 qəpik


# Cəbrayıldan dünyaya...

## İlham Əliyev: Dayandırın bu təhlükəli oyunları!



Bax səh. 2



# Zəfərə 32 gün qalırdı...

## Vətən müharibəsinin 12-ci günü

Bax səh. 2

# Azərbaycanın nümunəsi...

Bax səh. 3

## Baş tutmayan ssenarilər...

Dünyanın mənzərəsinə nəzər saldıqda görürük ki, müasir dövrdə müharibələr yalnız açıq döyüşlərdə aparılmır. Hegemonluq iddiasında olan ayrı-ayrı dövlətlər, güc mərkəzləri özlərinin məkrli məqsədlərinə çatmaqdan ötrü həm də ideoloji təxribatlara əl atırlar və bu yolla zərərli toxumlar səpirlər. Belə zərərli ideoloji təxribatların ünvanı qismində bir qayda olaraq güc mərkəzlərinin diktələrini qəbul etməyən və müstəqil siyasət aparan milli dövlətlər seçilirlər ki, Azərbaycan da bu sırada yer alır.

Bütün dövrlərdə gənclər cəmiyyətlərin avanqard hissəsini təşkil edib. Onların enerjisi, yenilikçi əhval-ruhiyyəsi, milli təəssübkeşliyi, ideyalara açıq olmaları ölkələrin inkişafına güclü impuls verir. Məsələ burasındadır ki, xaricdəki Azərbaycanofob dairələr də ölkəmizlə bağlı məkrli planlarını reallaşdırmaq üçün ilk növbədə müxtəlif vasitələrlə gəncləri ələ almağa çalışırlar. Prezident İlham Əliyev bu günlərdə Cəbrayılda yeni evlərə köçən şəhər sakinlərinə mənzillərin açarlarının təqdim edilməsi tədbirindəki çıxışında xaricdəki anti-Azərbaycan qüvvələrin fəallaşmasına xüsusi diqqət çəkib. Gəncləri ayıq-sayıq olmağa çağıran dövlətimizin başçısı "Ancaq biz öz gücümüzə arxalanmalıyıq və heç bir vədlərə, heç bir şirin sözlərə, yalançı ifadələrə aldanmamalıyıq. Xüsusilə mən gənc nəsli nəzərdə tuturam. Çünki bu gün anti-Azərbaycan qüvvələrin əsas hədəfi gənc nəsillərin şüurudur. Ona təsir etməyə çalışırlar. Ona görə Azərbaycana qarşı olmazın yalanlarını uydururlar, tirajlayırlar, öz mətbuatlarında, öz dırnaqarası qeyri-hökumət təşkilatlarında. Anti-Azərbaycan mövqeyində olan müxtəlif ünsürləri bu günə qədər də maliyyələşdirirlər Azərbaycanda, müxtəlif QHT-lər adı altında, hansısa ictimai qurumlar adı altında. Yəni gənc nəslin şüuruna təsir etsələr, demək olar ki, Azərbaycanın gələcəyinə təsir edəcəklər, heç vaxt gənclər unutmasınlar".

Hazırda Azərbaycana qarşı təzyiq cəhdləri əsasən Amerika Birləşmiş Ştatlarından, Fransadan və bir sıra Qərb təsisatlarından...

Bax səh. 3

## "Yarımçıq sülh" imzalanmayacaq



Bax səh. 3

## Dövlətin dəstəyi və zəmanəti ilə...

Bax səh. 5

## 117 ailənin yurd həsrəti bitdi!

Bax səh. 5

## Təmiz ətraf mühit və "yaşıl" inkişaf üçün...

Bax səh. 5

## Ermənipərəst konqresmenlərə xatırlatmalar...

Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi Ermənistanın havadarlarına rahatlıq vermir. Onlar müxtəlif bəhanələrlə ölkəmizə qarşı beynəlxalq müstəvidə qərəzli kampaniya aparır. Bu baxımdan, Azərbaycanda dünyanın ən mötəbər tədbiri olan COP29-un keçirilməsi həmin dairələrin ölkəmizə yönəlik yalan və böhtan üzərində qurulmuş təbliğatları üçün "fürsət" kimi görünür. Çünki COP29 ərəfəsində beynəlxalq ictimaiyyətin diqqəti Azərbaycandadır.

ABŞ Konqresinin bir qrup üzvü də anti-Azərbaycan mövqeyindən çıxış etməkdədir. Belə ki, oktyabrın 3-də bir qrup konqresmen ABŞ Dövlət katibi Antoni Blinkenə məktub yazaraq Azərbaycana qarşı qəbuledilməz mövqe ifadə ediblər. Konqresmenlər Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəf Dövlətlərin 29-cu görüşünə (COP29) ev sahibliyi etməsindən istifadə edərək, Ermənistanın gündəliyinə və regionda yenidən münaqişə yaratmağa xidmət edən bütün məsələlərin, o cümlədən müharibə cinayətlərinə görə məsuliyyət daşıyanların azadlığa buraxılması kimi beynəlxalq hüquqa zidd məsələlərin irəlilədilməsinə çalışıblar.

Əslində, bu, Konqres tərəfindən ilk belə hal deyil. Qeyd etdiyimiz kimi, ABŞ Konqresinin Ermənistana lobbiçilik edən üzvləri vaxtaşırı olaraq Azərbaycana qarşı qərəzli mövqe sərgiləyirlər. Həmin konqresmenlərin ABŞ-dakı erməni təşkilatı olan Amerika Erməni Milli Konqresi (ANCA) tərəfindən maliyyə dəstəyi alması hər kəsə məlumdur. Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Ermənistana havadarlıq edən beynəlxalq dairələr arasında ABŞ konqresmenləri də "fəallıqları" ilə seçilirlər.

Əlbəttə, ABŞ Konqresinin üzvlərinin bu addımına qarşı adekvat cavab verilməlidir. Bu baxımdan, Milli Məclisin bir qrup deputatının xarici işlər naziri Ceyhun Bayramova müraciəti müsbət...

Bax səh. 4

## Yaxın Şərqin 1 il 1 günü...



Bax səh. 6

## Fransanın növbəti frankofoniya rəzaləti



Bax səh. 4

# Cəbrayıldan dünyaya...

## İlham Əliyev: Dayandırın bu təhlükəli oyunları!

Son 35 il ərzində dünyada baş verən siyasi-hərbi prosesləri təhlil edərkən bir fakt diqqəti cəlb edir - bu və ya digər şəkildə həmin proseslərin “iştirakçısına” çevrilən Qərbin nə yanaşması, nə fəlsəfəsi, nə də davranışları birrəng olmayıb. Tam əksinə, regiona, ölkəyə və ya xalqa münasibətdə, lokal maraqlar əsasında formalaşan “hüquqi yanaşmalar”da ikili və daha çoxölçülü standartları əks etdirib. Bu kimi fərqli standarta məruz qalan regionlardan və ölkələrdən biri də məhz Azərbaycan olub. 1990-cı illərin əvvəlində işğala, təcavüzə məruz qalan Azərbaycana kollektiv Qərb tərəfindən nəinki heç bir dəstək verilməyib, tam əksinə, korporativ maraqların əsirinə çevrilmiş bu “irrasional qruplaşma” bəzi hallarda işğalçıya və işğala haqq qazandırıb. Adını “demokratik dünya” qoyan Qərbin davranışı isə demokratiyanın heç bir predmeti ilə üst-üstə düşmür.



### Qərb erməni vəhşiliyi qarşısında kar və kor olur...

2020-ci il Vətən müharibəsi erməni işğalına və paralel olaraq 30 ildən artıq davam etmiş haqsızlığa, ədalətsizliyə və hüquqsuzluğa son qoydu. Azərbaycan öz qətiyyəti, gücü və iradəsi ilə torpaqlarını işğaldan azad etdi. İşğaldan azad edilən ərazilərdəki mənzərə isə yalnız bir mətləbdən xəbər verirdi: erməni vəhşiliyi, erməni vandalizmi, erməni barbarlığı. Tarixi abidələr dağıdılmış, dini abidələr təhqir olunmuş, ekogen vəziyyət pisləşmişdi. Ayrı-ayrı rayon və şəhərlərin timsalında tarixin ən ağır və dəhşətli mənzərələri göz önündə canlanırdı. Azərbaycan dövləti bütün dünya ölkələrinə, beynəlxalq təşkilatlara müraciətlər edir, mövcud vəziyyətlə yerində tanış olmalarını istəyirdi. Amma Qərb hər zaman olduğu kimi, bu dəfə də gözlərini və qulağını qapadı, real faktları görməzdən gəldi. Prezident İlham Əliyev Cəbrayıl şəhərində inşa olunan yaşayış kompleksinin açılışında bildirib ki, ərazilərimizin böyük əksəriyyətinin dağıntılar içində olduğunu bilirdik, amma bu dərəcədə vəhşiliyi, qeyri-insani hərəkətləri təsəvvür etmək mümkün deyildi. Cəbrayılda demək olar ki, cəmi iki bina qalmışdı. Orada da erməni hərbçiləri yerləşmişdi: “Qalan bütün şəhər, bax, bu cürdür və bunu görmək istəməyən, Ermənistana bu gün də dəstək verən, onların işğalçılıq siyasətinə bəraət qazandıran bəzi Qərb dövlətləri də gözlərini geniş açıb baxsınlar. Görürlər, amma görməzliyə vururlar. Bizi ittiham edirlər, bizə qarşı sanksiyalar tətbiq edilir. Ermənistana qarşı 30 il ərzində bir dənə də sanksiya tətbiq edilməmişdir. Ermənistan beynəlxalq hüququn bütün norma və prinsiplərini pozmuşdur, torpaqlarımızın təxminən 20 faizini işğal etmişdir, etnik təmizləmə siyasəti aparmışdır, Xocalı soyqırımını törətmişdir, bütün şəhər-kəndlərimizi viran qoymuşdur. Hansısa Qərb dövlətinin rəsmi nümayəndəsi bir dəfə onlara irad tutubmu? Xeyr”.

30 ilə yaxın işğalçı Ermənistana bu və ya digər yollarla işğalı uzatmağa kömək edən Qərb bü gün də qeyri-hüquqi davranışlarını fərqli istiqamətlər üzrə davam etdirir. Ermənistanı silahlandıranlar unudurlar ki, bu ölkə BMT TŞ-nin 4 qətnaməsinə 30 məhəl qoymayıblar. Amma bu 30 il ərzində BMT TŞ üzvləri ən azından öz nüfuzlarını qorumaq üçün Ermənistana heç bir təsir etməyiblər - 2020-ci ildə Azərbaycan öz ərazilərini işğaldan azad etməklə həm də BMT TŞ üzvlərinin nüfuzunu xilas etmişdi. Artıq tarixə qovuşmuş “Qarabağ münaqişəsi”nin həlli ilə bağlı vasitəçi rolunda çıxış etməli olan ATƏT-in Minsk qrupu münaqişənin tənzimləməsinə ən böyük maneəyə çevrilmişdi. Dövlət başçısı çıxışında vurğulayıb ki, Ermənistan hətta dünyanın bir nömrəli təşkilatı olan BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə də məhəl qoymurdular: “Kimsə 2020-ci ilə qədər onlara bir söz dedi ki, sən o torpaqları işğal etmisən, oradan çıxmalısan? Xeyr. Minsk qrupu nə ilə məşğul idi - ancaq bu işləri malalamaqla, erməni işğalına müəyyən dərəcədə bəraət qazandırmaqla və bizi alçaldıcı sülhə təhrik etməklə. Minsk qrupunun fəaliyyəti bundan ibarət idi. Biz bütün beynəlxalq platformalarda öz haqq səsimizi ucaldanda bizə deyirdilər ki, sizin sözləriniz çox kəskindir. Bu kəskin ritorika sülhü yaxınlaşdırmır, sülhü uzaqlaşdırır. Ermənistanla dil tapmalısınız, barışmalısınız, müharibəni uduzmusunuz, bununla barışın. Bax, bütün bunları biz eşitmişik, həm rəsmi çıxışlarda, həm bağlı qapılar arxasındakı təmas əsnasında. Bizim isə mövqeyimiz birmənalı, qətiyyətli idi və dəyişməz idi: bir qarış torpaq işğal altında qala bilməz!”.

### Fransa və onun kimi Qərb dövlətləri işğalı əbədi etmək üçün əllərindən gələni əsirgəmədliər...

Ermənistanı açıq kontekstdə dəstəkləyən Qərbin ötən 30 ildəki vəzifəsi Azərbaycanı “məğlubiyyətə” razılaşdırmaq olmuşdu. Qərb üzdə neytral “hakimlik” etməli, vasitəçi kimi tənzimləməyə çalışmalı olduğu halda birtərəfli mövqe tuturdu - onlar Ermənistanı “qalib” elan etmişdilər və torpaqları işğaldan azad etmək əvəzinə bunun manipulyasiyasına xidmət edəcək “variantlar” düşünməklə məşğul idilər. Başda Fransa olmaqla bir sıra ölkələr Azərbaycana dolayısı ilə təzyiqlər göstərməyə cəhd edirdilər - hətta Azərabaycanın torpaqlarını özləri istədikləri kimi “bölüşdürmək” arzusuna düşənlər belə tapılırdı. Paralel olaraq Qərb özü üçün Qarabağ kartı ilə regiona, Azərbaycana təsir imkanları müəyyənləşdirmişdi. Separatizmi açıq-gizli dəstəkləyən Qərb bu yolla bölgədə özünün nüfuz dairəsini yaratmaq niyyətində idi.

Prezident İlham Əliyev çıxışında bildirib ki, Qərb dövlətləri, ilk növbədə, bizi məğlubiyyətlə barışdırmaq üçün bütün çirkin əməllərdən istifadə edirdilər ki, təki biz torpaqları işğaldan azad etməyək. Bu işğalı əbədi etmək üçün Fransa və onun kimi Qərb dövlətləri əllərindən gələni edirdilər. Bu ədalətsizliyin dərəcəsinə baxın ki, bizim torpaqlarımızı Ermənistana bağışlamaq istəyən ölkələr bu münaqişənin guya həlli ilə məşğul olurdular: “Onların əsl niyyəti bizi daim təzyiq altında saxlamaq və bu torpaqları Ermənistana bağışlamaq idi. Onların təklifləri nədən ibarət idi? Ondan ibarət idi ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə müstəqillik verilsin. Axı, bu riyakarlığın, ikiüzlülüyün dərəcəsi olmalıdır, yoxsa yox?! Bu gün Rusiya-Ukrayna müharibəsinə baxın, Qərb dövlətləri, Fransa, Amerika, o birilər nə deyirlər? Deyirlər, Ukraynanın ərazi bütövlüyü bərpa edilməlidir, Ukrayna silahdan istifadə etməlidir. Bütün növ silahları Ukraynaya verirlər. Yaxşı, bəs bizim işğal altında olan torpaqlarımıza niyə münasibət fərqli idi? Axı, bizim də ərazi bütövlüyümüz pozulmuşdu. Bizim insanlar - 1 milyon insan evsiz-eşiksiz qalmışdır. Kim bizə kömək edirdi? Vaqonlarda, yataqxanalarda, uşaq bağçalarında, çadırlarda 1 milyon insan yaşayanda niyə bu dərəcədə ikiüzlülük göstərilirdi? Bu suallara cavab tələb edirik”.

Qərbin fərqli standartı bu gün Avropanın mərkəzində davam edən münaqişənin fonunda daha aydın görünür - Ukraynanın ərazi bütövlüyünün pozulması ilə “barışmayan” Qərb nə üçün Ermənistana qarşı da bu cür reaksiya vermirdi? Niyə kollektiv Qərb İrəvanı işğal etdiyi ərazilərdən çıxarmırdı? Səbəb bəllidir - yenə də ikili standart. Qərb Ermənitan kimi alətlər vasitəsilə özünün regional hegemoqniyasını formalaşdırmağa çalışır.

### Müraciətin müəllifi də, ünvanı da birdir...

1992-ci ildə ABŞ konqresi tərəfindən qəbul edilən ədalətsiz “Azadlığa Dəstək Aktı”nın 907-ci maddəsinə düzəliş hələ də öz qüvvəsindədir - bu, ABŞ-ın qeyri-hüquqi davranışının ən böyük nümunəsidir. İşğala məruz qalana deyil, işğalçıya yardım etmək əslində, işğalı stimullaşdırmaqdır. Vaşinqton bu kimi qeyri-standart addımlarını yenə də davam etdirir - son günlərdə 60 ermənipərəst deputatın “müraciəti” bunu deməyə əsas verir. Yalan və böhtanla silahlanaraq Azərbaycana təsir etməyə çalışan bu qüvvələrin əsl məqsədi işğalçıları, separatçıları müdafiə etmək, onları məsuliyyətdən yayındırmaq, sülh prosesini ləngitmək, bölgədə sabitliyin bərqərar olmasına mane olmaqdır. ABŞ Dövlət Departamenti bu kimi “kargüzarlıq” fəaliyyəti ilə görüntü yaratmağa çalışır - guya hansısa “qrup” bu “mövqeni” irəli sürür. Halbuki, bu kimi müraciətlər elə Dövlət departamentinin, dövlət katibliyinin “mətbəxində” hazırlanır. ABŞ hakimiyyətinin qurduğu siyasi oyunlar isə primitiv və gülünc xarakter daşıdığı qədər də, demokratiyadan uzaq, hüquq müstəvisindən kənardır.

Prezident İlham Əliyev Cəbrayıl rayonunda çıxışı zamanı bildirib ki, həmin müraciətin müəllifi də, ünvanı da birdir: “Çünki bunun ünvanı Amerika Dövlət Departamentinin Dövlət katibidir. Amma məndə bir zərrə qədər şübhə yoxdur ki, bu müraciət Amerika Dövlət Departamentində də yazılır. Yəni özləri özlərinə məktub yazırlar, bizi hədələmək üçün, bizi ittiham etmək üçün. Axı, biz nə etmişik? Biz öz doğma torpaqlarımızı azad etmişik. Burada erməni yaşayıb? Yox, siz - Cəbrayılın sakinləri”.

### Xəbərdarlıq edirəm...

Qərbin siyasi anatomiyası bundan ibarətdir - ikiüzlülük, riyakarlıq, yalan və böhtan kampaniyaları. Qərb bütün prosesləri özünün baxış bucağından dəyərləndirir - özünə gərəkli olduğu zaman həmin ölkələri özünün “tərəfdaşı” elan edir. Korporativ maraqları olmadıqda isə “tərəzinin gözü əyilir” - haqsızlıq, ədalətsizlik və ikili standartlar yenidən aktuallaşır. Yuxarıda bəhs açdığımız 907-ci düzəliş 1992-ci ildən 2001-ci ilə qədər tətbiq edilmişdi - 2001-ci ildə isə aradan qaldırıldı. Amma “işləri bitən kimi” yenidən bu sanksiyaya “geridönüş” etdilər - demək ki, Qərb üçün heç bir ülvi dəyər və ya səmimi dostluq adlı bir nəsnə yoxdur - onlar üçün yalnız və yalnız lokal maraqlar və bu maraqların üzərində qurulan siyasət var. Onlar “Qarabağ kartı” kimi mühüm bir alətin əllərindən çıxmasını həzm edə bilmirlər - separatizm vaistəsilə bu və ya digər şəkildə regiona təsir mexanizmləri əllərindən çıxıb. Azərbaycanın qətiyyəti və gücü Qərbi düşünməyə vadar edib - bu gün üzdə “dostluq” təklif edənlər alt qatda Ermənistanı silahlandırır, sülhdən yayındırır. Təssüfləndirici haldır ki, Ermənistan Qərbin bu oyununda alət olur - II Qarabağ müharibəsindən nümunə götürməyən İrəvan yenə də qeyri-adekvat mövqe sərgiləyir, sülhdən yayınır. Amma Ermənistan anlamalıdır ki, heç bir Qərb dövləti və ya bir başqası İrəvanın arxasında sona qədər dayanmayacaq - bunun onlarla əyani misalı var. “Müttəfiqi” elan etdiyi ölkələri belə satan qərb üçün Ermənistan heç bir məna kəsb etmir. İrəvan yol yaxın ikən düşünməli və sülh şərtlərini qəbul edərək regionda əbədi sabitliyin mövcudluğunu dəstəkləməlidir.

Prezident İlham Əliyev Cəbrayıl şəhərində inşa olunan yaşayış kompleksinin açılışında bildirib ki, mən Ermənistana da bax, burada, dağıntılar arasında xəbərdarlıq edirəm: “Dayandırın bu təhlükəli oyunları! Bir tərəfdən sülhdən danışırlar, yalan-palan danışırlar, digər tərəfdən genişmiqyaslı silahlanma gedir. Silahları da kim verir onlara? Fransa və onun kimi anti-Azərbaycan ölkələr. O silahlar nə üçün onlara pulsuz verilir? Yəni, dediyim kimi şəhər-kəndlərimizi yenə də bax, bu vəziyyətə salmaq üçün. Nə qədər çalışsalar da, heç nə alınmayacaq. Ancaq bu gün Cənubi Qafqazı rahat buraxsınlar, əl çəksinlər, getsinlər öz işləri ilə məşğul olsunlar, öz problemləri ilə məşğul olsunlar, öz qanlı keçmişlərini yusunlar, öz günahlarını yumağa çalışsınlar. Bu gün əzab verdikləri 100 minlərlə insanın müstəqilliyini bərpa etsinlər, müstəmləkəçilik siyasətinə son qoysunlar, xalqları əzməsinlər, hər yerə burunlarını soxmasınlar. Xəbərdarlığım budur və hesab edirəm ki, bunu eşidən və buna əməl edən səhv etməz”.

***Pərviz SADAYOĞLU***

---

## Zəfərə 32 gün qalırdı...



2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan “Dəmir yumruq” adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.

**Vətən müharibəsinin 12-ci günü**

**08.10.2020**

• Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən intensiv atəşə tutması nəticəsində 8 oktyabr saat 13:00-a olan məlumata görə, həlak olmuş mülki şəxslərin sayı 31-ə, xəsarət alanların sayı isə 154-ə çatıb, 928 ev, 133 mülki obyekt və 45 çoxmənzilli yaşayış binası yararsız vəziyyətə düşüb.



• Düşmən ordusu cəbhənin Füzuli istiqamətində dinc əhaliyə qarşı qadağan olunmuş fosforlu bombalardan istifadə edib.

• Ermənistan silahlı qüvvələri Bərdə şəhərini növbəti dəfə artilleriya atəşinə tutub.

# Baş tutmayan ssenarilər...

## Əsas hədəf gənc nəslin şüurudur

**Dünyanın mənzərəsinə nəzər saldıqda görürük ki, müasir dövrdə müharibələr yalnız açıq döyüşlərdə aparılmır. Hegemonluq iddiasında olan ayrı-ayrı dövlətlər, güc mərkəzləri özlərinin məkrli məqsədlərinə çatmaqdan ötrü həm də ideoloji təxribatlara əl atırlar və bu yolla zərərli toxumlar səpirlər. Belə zərərli ideoloji təxribatların ünvanı qismində bir qayda olaraq güc mərkəzlərinin diktələrini qəbul etməyən və müstəqil siyasət aparan milli dövlətlər seçilirlər ki, Azərbaycan da bu sırada yer alır.**



### Gənclər heç vaxt unutmamalıdırlar

Bütün dövrlərdə gənclər cəmiyyətlərin avanqard hissəsini təşkil edib. Onların enerjisi, yenilikçi əhval-ruhiyyəsi, milli təəssübkeşliyi, ideyalara açıq olmaları ölkələrin inkişafına güclü impuls verir. Məsələ burasındadır ki, xaricdəki Azərbaycanofob dairələr də ölkəmizlə bağlı məkrli planlarını reallaşdırmaq üçün ilk növbədə müxtəlif vasitələrlə gəncləri ələ almağa çalışırlar. Prezident İlham Əliyev bu günlərdə Cəbrayılda yeni evlərə köçən şəhər sakinlərinə mənzillərin açarlarının təqdim edilməsi tədbirindəki çıxışında xaricdəki anti-Azərbaycan qüvvələrin fəallaşmasına xüsusi diqqət çəkib. Gəncləri ayıq-sayıq olmağa çağıran dövlətimizin başçısı "Ancaq biz öz gücümüzə arxalanmalıyıq və heç bir vədlərə, heç bir şirin sözlərə, yalançı ifadələrə aldanmamalıyıq. Xüsusilə mən gənc nəsli nəzərdə tuturam. Çünki bu gün anti-Azərbaycan qüvvələrin əsas hədəfi gənc nəsillərin şüurudur. Ona təsir etməyə çalışırlar. Ona görə Azərbaycana qarşı olmazın yalanlarını uydururlar, tirajlayırlar, öz mətbuatlarında, öz dırnaqarası qeyri-hökumət təşkilatlarında. Anti-Azərbaycan mövqeyində olan müxtəlif ünsürləri bu günə qədər də maliyyələşdirirlər Azərbaycanda, müxtəlif QHT-lər adı altında, hansısa ictimai qurumlar adı altında. Yəni, gənc nəslin şüuruna təsir etsələr, demək olar ki, Azərbaycanın gələcəyinə təsir edəcəklər, heç vaxt gənclər unutmasınlar".

Hazırda Azərbaycana qarşı təzyiq cəhdləri əsasən Amerika Birləşmiş Ştatlarından, Fransadan və bir sıra Qərb təsisatlarından gəlir. Onların fəallaşmaları isə heç də təsadüfi sayıla bilməz. Belə arzuolunmaz fəaliyyətlər xüsusilə 44 günlük Vətən müharibəsindən və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərindən sonrakı mərhələdə daha da intensivləşib. Bunun səbəbləri bəllidir. Azərbaycan öz gücünə ərazi bütövlüyünü və suverenliyini tam təmin etməklə əsas ümummilli hədəfinə çatıb. Qarşıdakı strateji mərhələ üçün isə yeni strateji hədəflər müəyyənləşdirilib. Xaricdəki Azərbaycanafob dairələri əndişələndirən də Azərbaycanın güclü potensialına əsaslanmaqla milli hədəflərinə çatmasıdır. Bununla, əslində respublikamız imperialist güc mərkəzlərinin Cənubi Qafqaz planlarını iflasa uğradıb. İkinci Qarabağ müharibəsindən əvvəl onlar Azərbaycan cəmiyyətinə və dövlətinə nəyi aşılamaq və qəbul etdirmək istəyirdilər? Onların məqsədi Ermənistanın işğalçılıq siyasətinin nəticələrini legitimləşdirməyə nail olmaq idi. Bizi təslimçiliyə, torpaq itkiləri ilə barışmağa çağırırdılar. Bu məqsədlə saxta təbliğat maşını işə salınmışdı. İcmalar arasında ünsiyyət qurulmasının vacibliyi əsaslandırılır, ərazi bütövlüyümüzün bərpası üçün hərbi variant istisna olunurdu...

Azərbaycan bütün bu planları pozdu. Buna görə də Azərbaycanofob qüvvələr ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası kimi fundamental uğurlarımızı sinirə bilmirlər və yeni hücum kampaniyalarına start veriblər. Hansısa yollarla hakimiyyətlə cəmiyyət arasında ayrıcı xətlər yaratmaq, ölkədə cari məsələləri qabartmaqla inamsızlıq əhval-ruhiyyəsi formalaşdırmaq onların planlarına daxildir. Ancaq həmin qüvvələr, görünür ki, ölkəmizin reallıqlarını, xalqımızın mental xüsusiyyətlərini, o cümlədən də gənclərimizin vətənpərvərliyini dərk etmək iqtidarında deyillər. Azərbaycan cəmiyyəti ənənələrinə və tarixinə bağlı olan cəmiyyətdir. Gənclərimiz də məhz bu ruhdadırlar. Qərb dairələri bilməlidirlər ki, müxtəlif hiylələrlə, aldadıcı vədlərlə gənclərimizə təsir etmək, onları səhv istiqamətlərə yönəltmək,



milli maraqlarımızdan uzaqlaşdırmaq əsla mümkün deyil. Yeri gəlmişkən, 44 günlük müharibənin, 23 saatlıq lokal xarakterli antiterror tədbirlərinin əsas ağırlığı məhz Azərbaycan gənclərinin üzərinə düşdü. Məhz onlar ön cəbhədə düşmənə qan uddurmaqla Azərbaycan xalqının torpaq həsrətinə son qoydular. Bu gün cilddən-cildə girən, özlərini "dost" kimi qələmə verən qüvvələrin səyləri əbəsdir. Cəmiyyətimiz yaxşı anlayır ki, zamanında işğalçı Ermənistana yandaşlıq edənlərdən bizə dost olmaz. Gənclərimizin hamisi, əsl dostu Azərbaycan dövləti və Prezidentidir.

### İflasa uğrayan fəaliyyətlər

İmperialist güc mərkəzlərinin Açıq Cəmiyyət İnstitutu, USAİD kimi uzantılarının ölkəmizdə də şirnikləndirici vədlərlə azsaylı "Beşinci kolon" formalaşdırdığı inkarolunmaz faktdır. Məsələn, Sevinc O.qızının, Qənimət Zahidin internet televiziyaları, eləcə də "Toplum TV", "Abzas-media" kimi qurumlar xaricdəki Azərbaycanofob dairələrin ruporları, danışan dilləri qismində çıxış edirlər. Bununla belə, imperialist güc mərkəzlərinin və "Beşinci kolon"da yer alan sapı özümüzdən olan baltaların fəaliyyətləri bir qayda olaraq nəticəsiz qalır və idarə olunan xaos ssenariləri iflasa uğrayır.

Sözügedən qurumun vaxtilə respublikamızda müxtəlif adlar altında fəaliyyət göstərən təşkilatları maliyyələşdirməklə onların vasitəsilə Azərbaycan hökuməti əleyhinə qeyri-qanuni aksiyaların permanentliyini təmin etməyə çalışdığına dair təkzibolunmaz faktlar var. USAİD məkrli fəaliyyətini pərdələmək üçün regionlarda müxtəlif layihələr həyata keçirirdi. Məsələn, 2014-cü ildə USAID Azərbaycanda "müstəqil medianın inkişafı" üçün 2,4 milyon dollar məbləğində qrant ayırıb və vəsaiti özünə yaxın bildiyi media və vətəndaş cəmiyyəti təsisatlarına qeyri-şəffaf formada paylayıb. Bu fəaliyyətlərin alt qatında qərəzli məqsədlər gizlənir. Heç təsadüfi deyildir k, ölkəmizdəki redikül müxalifət düşərgəsində yer alan "Beşinci kolon" təmsilçiləri USAID-dən, ABŞ Milli Demokratiya İnstitutundan (MDI/NDI) maliyyələşir və aldıqları qrant müqabilində lazım olan informasiya və dəstəyi göstərməyi özlərinə borc bilirlər.

Bir qədər bundan əvvəl isə E.Makron iqtidarının Azərbaycana yönəlik qərəzli siyasətinin yeni bir istiqamətinin gizlinləri aşkarlandı. Söhbət Fransa xüsusi xidmət orqanlarının ölkəmizdə həyata keçirdiyi casusluq fəaliyyətinin ifşa olunmasından gedir. Bu dəfə agentura şəbəkəsində yer alanlar Fransanı respublikamızda təmsil edən diplomatlar idilər. Onların əməlləri təkzibolunmaz faktlarla ifşa edildi və bu barədə geniş təfərrüatlar Fransa mətbuatında da işıqlandırıldı.

Bütün bunlar ona dəlalət edir ki, Azərbaycan milli maraqlarını qətiyyətlə qorumaq gücündə olan dövlətdir. Ölkəmizdə milli maraqlarımız əleyhinə casusluq, gənclərin şirnikləndirici vədlərlə ələ alınması kimi ssenarilər heç vaxt baş tutmayıb və bundan sonra da baş tutmayacaq.

***Mübariz ABDULLAYEV***

# "Yarımçıq sülh" imzalanmayacaq

## Azərbaycan regionda əbədi və dayanıqlı normallaşma prosesi arzulayır

Vətən müharibəsindən ötən 4 il ərzində Cənubi Qafqazda cərəyan edən siyasi - hərbi proseslər bölgənin sabit və real inkişafı üçün əsas şərt kimi sülhü aktuallaşdırır. 2022-ci ildə qalib Azərbaycanın təşəbbüsü ilə ortaya çıxan prosesə ötən dövr ərzində bir neçə dəfə Ermənistan tərəfindən maneələr olub - uzun müddətdir ki, sülhə qarşı aparılan sabotaj, manipulyasiya cəhdləri, ləngitmə halları İrəvanın məsələdəki qeyri-adekvat mövqeyindən xəbər verir. Halbuki Azərbaycanın təqdim etdiyi şərtlər beynəlxalq hüquqa söykənməklə, mövcud həqiqətləri əks etdirməklə yanaşı, Ermənistanın özünü real dövlət olaraq təsdiqləməsi üçün yeni zəmin yaradır. Ortaya çıxan situasiyadan istifadə etməklə İrəvan beynəlxalq münasibətlər sistemində real dövlət olaraq qiymətləndirmə imkanı qazanacaq. Ölkəmizin təqdim etdiyi dövlətlərin bir-birlərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması, dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması, o cümlədən, nəqliyyat və kommunikasiyaların açılışı və bu kimi müddəalar Ermənistanın gələcəyi üçün vacib perspektiv vəd edir.

Vurğulandığı kimi, Ermənistan 2 ildir ki, bu və ya digər bəhanələrlə, ləngitmələrlə sülhün gerçəkləşməsini yubadır. Maraqlıdır ki, hər iki tərəf aparılan müzakirələrdə müddəaların bir çoxunun razılaşdırıldığını təsdiqləyir. Razılaşdırılmayan bəndlər, daha doğrusu, Ermənistanın Azərbaycanın hüquqi çağırışlarına cavab verməməsi sülhün imzalanmasına maneə yaradır.

### İrəvanın yeni manipulyasiyası

Son zamanlarda isə İrəvan yeni manipulyasiyaya əl atmaq niyyətinə düşüb - məğlub ölkə razılaşdırılmamış müdəəaları sülh müqaviləsindən çıxarmaqla imzalamaq istəyir. Sentyabrın 23-də VII çağırış Milli Məclisin ilk iclasında çıxış edən Prezident İlham Əliyev məsələyə toxunaraq bildirmişdi ki, Ermənistan bu məsələni süni şəkildə uzadır. Çünki bu günə qədər - bizim birinci layihəmiz Ermənistana göndəriləndən bu günə qədər 10 şərhlər mübadiləsi olmuşdur və hər dəfə müəyyən müddəalar razılaşdırılırdı, yəni bu işdə tərəqqi var idi: "Bunu biz necə var, elə də deməliyik. Amma bununla yanaşı, aylar keçdikcə, təbii olaraq biz gözləyirdik ki, Ermənistan öz şərhlərini bizə daha operativ və çevik verəcək. Ancaq biz bunun tam əksini gördük. Son variantın onlardan alınmasını biz 70 gün gözləməli olduq. İyunun 24-də bizim şərhlərimiz onlara göndərildi və avqustun sonunda, ya da ki, sentyabrın əvvəlində onlar bizə cavab göndərmişdilər. Bu cavab nədən ibarət idi? Bütün razılaşdırılmamış müddəalar onların variantında sülh müqaviləsindən çıxarıldı. Yəni, bu dərəcədə primitiv və qeyri-adekvat addım, sözün düzü, gözlənilən deyildi. Mətndən çıxarılmış, yəni onların istəyi ilə çıxarılması nəzərdə tutulan müddəalar vacibdir. Onlarsız sülh müqaviləsi natamam olacaq".

İndiki halda rəsmi İrəvanın mövqeyi isə birmənalı şəkildə sabotaja xidmət edir - onlar yarmıçıq sülh imzalamaqla prosesin dayanıqlı və əbədi struktura malik olmasını təmin etmək istəmirlər. Məsələn, bir müddət öncə Ermənistan parlamentinin sədri, Alen Simonyan bildirmişdi ki, Azərbaycanın siyasi iradəsi varsa, bu gün sülh müqaviləsinin razılaşdırılmış bəndlərini imzalamaq imkanı var. Simonyanın sözlərinə görə, Ermənistan Konstitusiyası sülhün imzalanmasına heç bir maneə yaratmır və Azərbaycan tərəfinin Ermənistanın Əsas Qanununa istinadları doğru deyil.



Zaman keçdikcə bu tip "çağırışlar" daha da intensivləşir. Ermənistan yarıçmıq sülh imzalamaq üçün hərtərəfli "kampaniya" aparır. Məsələn, Ermənistan Xarici İşlər Nazirliyinin sözçüsü Ani Badalyan "Armenpress"ə müsahibəsində bildirib ki, İrəvan yenidən Bakını COP-29-dan əvvəl sülh sazişi imzalamağa dəvət edir.

İlk baxışdan özünü sülhpərvər qiyafədə təqdim etməyə çalışan İrəvanın əsl məqsədi tez-tələsik razılaşdırılmış bəndlərin üzərində "sülh müqaviləsi"fonu yaratmaq və onu imzalamaqdır. Halbuki...

### Konstitusiya dəyişməlidir...

Sülh üçün ilkin şərtlərdən bəlkə də birincisi Ermənistan konstitusiyasında dəyişikliklərin edilməsidir. Söhbət ondan gedir ki, Ermənistanın Müstəqillik Bəyannaməsinin preambulasında "Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının 1 dekabr 1989-cu il tarixli "Ermənistan SSR-yə yenidən birləşmək haqqında" birgə qondarma qərar yer almaqdadır. Yəni rəsmi olaraq Ermənistan hələ də 4.4 min kv kmlik Azərbaycan torpağına iddia ortaya qoyur. Bu düzəliş olmadan sülhün imzalanması isə mümkün deyil - bu "yarımçıq sülh" ola bilər. Yeri gəlmişkən, bir müddət öncə BMT Baş Assambleyasının 79-cu sessiyasının ümumi müzakirələrində çıxış edən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bildirmişdi ki, prosesi məntiqi sonluğa çatdırmaq xüsusunda bizim sadiqliyimiz və qətiyyətimiz dəyişməz olaraq qalır. Normallaşma prosesinin başa çatdırılması üçün Ermənistan konstitusiya dəyişikliklərini həyata keçirməklə hüquqi müstəvidə Azərbaycana qarşı ərazi iddialarından birdəfəlik imtina etməlidir: "Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tanınması məsələsi hüquqi boşluqda qaldığı, habelə, daxili hüquqi və ya siyasi ssenarilərdən asılı olduğu təqdirdə, sülh və mehriban qonşuluq münasibətlərinin qurulması dayanıqlı və dönməz ola bilməz. Qonşulara qarşı irredentizm və ərazi iddialarının səbəb olduğu bu qədər ağrı və iztirablardan sonra "yarımçıq sülh" seçim ola bilməz".

### Azərbaycan öz siyasətini uzaq gələcək üçün fokuslayır...

Burada əsas "ştrix" Ermənistanın sülh müqaviləsini məhz qısa variantda imzalamaq istəyini irəli sürməsidir - onların məqsədi və məramı isə bəllidir. Ermənistan razılaşdırılmış bəndlərdən ibarət müqavilə hazırlayaraq tələm-tələsik imzalamaqla prosesi öz xeyirinə inkişaf etdirmək istəyir. Belə olduğu halda, müqavilə əbədi sülhü təmin edə bilmir - ən azından Ermənistan Konstitusiyasındakı məlum ərazi iddiaları bu müqaviləni hər an hüquqi qüvvədən sala bilər. Bu isə Azərbaycanın sülh baxışları ilə ziddiyyət təşkil edir.

Başqa sözlə, həmin müddəaların sülh müqaviləsində olmaması Ermənistanın gələcəkdə yenidən işğalçı mövqedən çıxış etməsinə "yardım" edə bilər. Bütün hallarda Ermənistanda baş verə biləcək hər hansı siyasi dəyişiklik, hakimiyyət dəyişikliyi bu sülh müqaviləsindən imtina imkanları verir.

Azərbaycan dövləti hər bir addımını, qərarını planlaşdırılmış və düşünülmüş şəkildə atır - biz dövlət siyasətimizi yaxın hədəflər üçün müəyyənləşdirmirik, əksinə, bütün addımlarımızı möhkəm özüllər üzərində formalaşdırıraq uzaq gələcək üçün fokuslayırıq. Amma Ermənistan bununla bağlı dərindən düşünməlidir - yalançı dəstəklərə uyan İrəvan 30 il inkişafdan, regional əməkdaşlıqdan kənarda qalıb. Bu dəfə daha təhlükəli oyuna "baş vururlar" - bu isə həm ermənilərin özləri, həm də onların dövlətçiliyi üçün pis nəticələr vəd edir...

***P.İSMAYILOV***

# Azərbaycanın nümunəsi...

## Ordumuz Vətən müharibəsində və antiterror tədbirlərində beynəlxalq humanitar hüquqa tam riayət edib

Oktyabrın 7-də Bakıda "Hərbi əməliyyatların idarə olunmasında beynəlxalq qaydalar üzrə yüksək səviyyəli seminar" (SWIRMO) öz işinə başlayıb. Seminar Azərbaycan Müdafiə Nazirliyinin və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) birgə təşkilatçılığı ilə təşkil olunub. Beynəlxalq Qızıl Xaç Komitəsinin əhəmiyyətli tədbirlərindən biri olan bu seminarda 70-dən çox ölkəni təmsil edən yüksəkrütbəli zabit iştirak edir.

Seminar əsasən müharibə təcrübəsi olan ölkələrdən məhz beynəlxalq humanitar hüququn əsaslarına, norma və prinsiplərinə riayət edən ölkələrin ərazilərində keçirilir. Azərbaycan Ordusunun hərbi qulluqçuları seminarda öz təcrübələrini bölüşürlər. Azərbaycanın Vətən müharibəsi, sonrakı döyüş əməliyyatları, xüsusilə antiterror əməliyyatında beynəlxalq humanitar hüquqa riayət etməsi nümunəvi xarakter daşıyır. 44 günlük müharibədə mülki insanlara dəymiş zərər nisbəti 1960-cı ildən bəri dünya hərb tarixində bir möcüzə hesab olunur. Antiterror əməliyyatında isə mülki itkifat ümumiyyətlə olmayıb. Bütün bunlar Azərbaycanın beynəlxalq humanitar hüquqa ciddi riayət etməsinin bariz nümunəsidir. Elə bu səbəbdən də 17-ci seminarın məhz ölkəmizdə keçirilməsi təsadüfi deyil.

Seminarda müdafiə nazirinin müavini Aqil Qurbanov açılış nitqi ilə çıxış edərək Azərbaycana qarşı törədilən hərbi cinayətlər nəticəsində mülki şəxslərin həlak olmasından danışıb. Nazir müavini çıxışında bildirib ki, Azərbaycan torpaqlarında 30 il ərzində müharibə cinayətləri törədilib, itkin düşən dörd min azərbaycanlı haqqında məlumat verilmir. Bölgədə basdırılan minaların təhdid olduğunu deyən nazir müavini qeyd edib ki, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatdan sonra 379 nəfər mina qurbanı olub.

Beynəlxalq Qızıl Xaç Komitəsinin (Cenevrə) Silahlı və Təhlükəsizlik Qüvvələri ilə əməkdaşlıq departamentinin rəhbəri Pit Evans isə "Silahlılarla dialoqun aparılması" mövzusunda təqdimatında bildirib ki, dünyada 210 milyon insan silahlı qrupların təsiri altında yaşayır. Silahlı münaqişələr zamanı mülki əhali, mülki obyektlər qorunma altındadır, əhaliyə dəyən ziyanın minimuma, sıfra endirilməsi hədəflənib. Lakin təəssüf ki, indiyədək zərəri sıfra endirmək mümkün olmayıb. "Silah daşıyıcıları, hərbçilər, zabitlər, mühafizə qurumları ilə, o cümlədən silahlı münaqişələrin təsirlərinə məruz qalanlarla danışıqlar aparırıq. Biz bütün tərəflərlə ünsiyyət qurmaqla neytrallığı qoruya bilərik", - deyə P.Evans qeyd edib.

Qeyd edək ki, seminarda BQXK-nın yaranma tarixi və indiki fəaliyyəti, silahlılarla dialoqun aparılması, hərbi əməliyyatlar və hüquq, hüququn inteqrasiyası, beynəlxalq humanitar hüquq və hədəfəalma, Azərbaycan Ordusunda Beynəlxalq Humanitar Hüququn tətbiqi və digər mövzularda çıxışlar olub.

Seminarın keçirilməsində başlıca məqsəd hərbi əməliyyatların idarə olunmasına dair beynəlxalq qaydaların anlaşılmasını dərinləşdirmək, müasir döyüş meydanında beynəlxalq humanitar hüququn tətbiqi ilə bağlı problemləri araşdırmaq, bu hüququ hərbi planlaşdırma, əməliyyatların aparılması və əxlaqi dəyərlərin gücləndirilməsinə inteqrasiya etmək, həmçinin eyni məkanda çalışan hərbçilərlə BQXK arasında qarşılıqlı anlaşmanı inkişaf etdirməkdir.

Seminar oktyabrın 12-dək davam edəcək.

***NARDAR***



# Ermənipərəst konqresmenlərə xatırlatmalar...

## Azərbaycan ABŞ-la bir sıra sazişləri ləğv edə bilər

Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi Ermənistanın havadarlarına rahatlıq vermir. Onlar müxtəlif bəhanələrlə ölkəmizə qarşı beynəlxalq müstəvidə qərəzli kampaniya aparır. Bu baxımdan, Azərbaycanda dünyanın ən mötəbər tədbiri olan COP29-un keçirilməsi həmin dairələrin ölkəmizə yönəlik yalan və böhtan üzərində qurulmuş təbliğatları üçün "fürsət" kimi görünür. Çünki COP29 ərəfəsində beynəlxalq ictimaiyyətin diqqəti Azərbaycandadır.

### COP29-u "fürsət" görən konqresmenlər

ABŞ Konqresinin bir qrup üzvü də anti-Azərbaycan mövqeyindən çıxış etməkdədir. Belə ki, oktyabrın 3-də bir qrup konqresmen ABŞ Dövlət katibi Antoni Blinkenə məktub yazaraq Azərbaycana qarşı qəbuledilməz mövqe ifadə ediblər. Konqresmenlər Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəf Dövlətlərin 29-cu görüşünə (COP29) ev sahibliyi etməsindən istifadə edərək, Ermənistanın gündəliyinə və regionda yenidən münaqişə yaratmağa xidmət edən bütün məsələlərin, o cümlədən müharibə cinayətlərinə görə məsuliyyət daşıyanların azadlığa buraxılmasının kimi beynəlxalq hüquqa zidd məsələlərin irəlilədilməsinə çalışıblar.

Əslində, bu, Konqres tərəfindən ilk belə hal deyil. Qeyd etdiyimiz kimi, ABŞ Konqresinin Ermənistana lobbiçilik edən üzvləri vaxtaşırı olaraq Azərbaycana qarşı qərəzli mövqe sərgiləyirlər. Həmin konqresmenlərin ABŞ-dakı erməni təşkilatı olan Amerika Erməni Milli Konqresi (ANCA) tərəfindən maliyyə dəstəyi alması hər kəsə məlumdur. Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Ermənistana havadarlıq edən beynəlxalq dairələr arasında ABŞ konqresmenləri də "fəallıqları" ilə seçilirlər.

### Deputatların müraciəti...

Əlbəttə, ABŞ Konqresinin üzvlərinin bu addımına qarşı adekvat cavab verilməlidir. Bu baxımdan, Milli Məclisin bir qrup deputatının xarici işlər naziri Ceyhun Bayramova müraciəti müsbət haldır. Müraciətdə bildirildiyi kimi, 2023-cü il sentyabrın 20-də Azərbaycanın öz suverenliyini bərpa etməsindən az sonra həmin il dekabrın 9-da BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) Azərbaycanın ev sahibliyi etməsi barədə qərarın yekdilliklə dəstəklənməsi dünya dövlətlərinin Azərbaycanın beynəlxalq sülh və inkişaf məsələlərinə dair baxışına böyük dəstək verməsinin sübutudur.

Azərbaycan tərəfinin COP29-a yüksək səviyyədə davam edən hazırlığı bütövlükdə bəşəriyyəti narahat edən iqlim dəyişmələri üzrə fundamental məsələlərin həllinə nə dərəcədə ciddi yanaşmasının göstəricisidir. "Təəssüflə qeyd etmək istərdik ki, bir sıra dairələr Azərbaycanın COP29-a ev sahibliyi edəcəyindən istifadə edərək, Azərbaycana hansısa məsələni qəbul etdirmək fikrinə düşüblər. ABŞ Senatının və Nümayəndələr Palatasının bir qrup üzvünün 2024-cü il oktyabrın 3-də bu ölkənin Dövlət katibi Antoni Blinkenə göndərdiyi müraciət də bu qəbildəndir. Açıq şəkildə bildirmək lazımdır ki, sözügedən müraciətin Dövlət Departamenti tərəfindən təşkil edildiyinə dair şübhəmiz yoxdur. Prezident İlham Əliyevin oktyabrın 4-də Cəbrayıl şəhərində vurğuladığı kimi, Dövlət Departamentində Azərbaycanı hədələmək üçün özləri özlərinə məktub yazırlar",-deyə qeyd olunan müraciətdə o da vurğulanır ki, Azərbaycana qarşı irqi ayrı-seçkiliyi ehtiva edən, böhtanla dolu, dialoq ruhuna zidd olan, müharibə cinayətkarlarının azadlığa buraxılmasına və Ermənistanın hərbiləşdirilməsinə çağırış edən bu müraciət qəbuledilməzdir, beynəlxalq hüquqa ziddir və ABŞ-nin ikitərəfli münasibətlərin rəvan şəkildə davam etdirilməsində maraqlı olmadığını göstərir.





YEDDİNCİ ÇAĞIRIŞ
AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN DEPUTATI

№ 1-6/07-1/2-9/2024 — 5 oktyabr 2024-cü il

Azərbaycan Respublikasının
xarici işlər naziri
cənab Ceyhun Bayramova

Hörmətli cənab Nazir,

İlk öncə qeyd etmək istərdik ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi ilə regionda uzunmüddətli sülh və sabitlik üçün əsas yaranmışdır. Otuz illik işğala və haqsızlığa son qoymuş Azərbaycan təkcə öz milli maraqlarını deyil, həm də beynəlxalq hüququn aliliyini təmin etmişdir.

Yaranmış bu vəziyyət ölkəmizi ümumbəşəri problemlərin həllinə töhfələrini daha fəal şəkildə həyata keçirməyə imkan yaradır. 2023-cü il sentyabrın 20-də Azərbaycanın öz suverenliyini bərpa etməsindən az sonra həmin il dekabrın 9-da BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəf Dövlətlərinin 29-cu görüşünə (COP29) Azərbaycanın ev sahibliyi etməsi barədə qərarın yekdilliklə dəstəklənməsi dünya dövlətlərinin Azərbaycanın beynəlxalq sülh və inkişaf məsələlərinə dair baxışına böyük dəstək verməsinin sübutudur.

Azərbaycan tərəfinin COP29-a yüksək səviyyədə davam edən hazırlığı, bütövlükdə, bəşəriyyəti narahat edən iqlim dəyişmələri üzrə fundamental məsələlərin həllinə nə dərəcədə ciddi yanaşmasının göstəricisidir.

Təəssüflə qeyd etmək istərdik ki, bir sıra dairələr Azərbaycanın COP29-a ev sahibliyi edəcəyindən istifadə edərək, Azərbaycana hansısa məsələni qəbul etdirmək fikrinə düşüblər. ABŞ Senatının və Nümayəndələr Palatasının bir qrup üzvünün 2024-cü il oktyabrın 3-də bu ölkənin dövlət katibi Entoni Blinkenə göndərdiyi müraciət də bu qəbildəndir.

Açıq şəkildə bildirmək lazımdır ki, sözügedən müraciətin Dövlət Departamenti tərəfindən təşkil edildiyinə dair şübhəmiz yoxdur. Prezident İlham Əliyevin oktyabrın 4-də Cəbrayıl şəhərində vurğuladığı kimi, Dövlət Departamentində Azərbaycanı hədələmək üçün özləri özlərinə məktub yazırlar.

Azərbaycana qarşı irqi ayrı-seçkiliyi ehtiva edən, böhtanla dolu, dialoq ruhuna zidd olan, müharibə cinayətkarlarının azadlığa buraxılmasına və Ermənistanın hərbiləşdirilməsinə çağırış edən bu müraciət qəbuledilməzdir, beynəlxalq hüquqa ziddir və ABŞ-nin ikitərəfli münasibətlərin rəvan şəkildə davam etdirilməsində maraqlı olmadığını göstərir.

### ABŞ mühüm insan hüquqları konvensiyalarına qoşulmayıb

Saxta əsaslarla insan hüquqları və beynəlxalq humanitar hüquqa riayət edilməsi sahəsində Azərbaycana iradlar irəli sürən müraciətin müəlliflərinə ABŞ-ın İraq, Əfqanıstan və dünyanın digər müxtəlif bölgələrində törətdiyi müharibələr zamanı milyonlarla dinc insanın həlak olduğunu, çoxlu sayda insanın işgəncəyə məruz qalmasını və hüquqi proses olmadan onlara cəza verilməsini xatırlatmaq istərdik. İnsan hüquqlarından dəm vuran ABŞ ən mühüm insan hüquqları konvensiyalarına qoşulmayıb. BMT-nin İşgəncələrə qarşı xüsusi məruzəçisini uzun illər Quantanamoya buraxmayan həmin ABŞ-dır. Eləcə də ATƏT-in Minsk qrupunun həmsədri olan ABŞ heç vaxt öz məsuliyyətini dərk etməyib, Fransa ilə birlikdə Azərbaycan torpaqlarının işğal altında qalmasına çalışıb. ABŞ-ın gözü qarşısında vaxtilə işğal edilmiş ərazilərdə Azərbaycan xalqının mədəni irsi, məscidləri, tarixi abidələri dağıdılıb, təhqir edilib, bütöv şəhərlər və kəndlər yer üzündən silinib. ABŞ Ermənistanın bu barbarlıq əməllərini heç vaxt pisləməyib.

2020-ci il Vətən müharibəsindən sonra başlanan və ötən ildən intensivləşən bu hücumlar ABŞ-ın Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etməsini qəbul etməməsindən, Azərbaycan xalqına qarşı dini və etnik ayrı-seçkilik göstərməsindən və regionda yenidən münaqişə yaratmaq niyyətindən irəli gəlir. Saxta ittihamlarla dünyanın müxtəlif ölkələrini işğal etmiş ABŞ nəyə görə Azərbaycanın öz ərazisini işğaldan azad etmək, separatizmə son qoymaq üçün həyata keçirdiyi əməliyyatı "hərbi təcavüz" kimi dəyərləndirir? Daim Ermənistanın suverenliyi və ərazi bütövlüyündən dəm vuran konqresmenlər bircə dəfə olsun Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə hörmətdən danışmayıblar.

Digər tərəfdən, Azərbaycanı "etnik təmizləmə"də ittiham edən konqresmenlər nə üçün Ermənistandan bütün azərbaycanlıların deportasiya edilməsinə, Qərbi Azərbaycan İcmasının elə həmin Antoni Blinkenə ünvanladığı müraciətlərə heç bir reaksiya vermirlər? Millət vəkilləri hesab edirlər ki, konqresmenlər o səviyyəyə eniblər ki, erməni müəllifin məqaləsini Azərbaycana qarşı "sübut" kimi istifadə edirlər: ""Azərbaycanda həll olunmamış ərazi münaqişələri" dedikdə konqresmenlər nəyi nəzərdə tutur? Qarabağ münaqişəsi həll olunub. Azərbaycan xalqı, Azərbaycan dövləti Qarabağ münaqişəsini həll edibdir və Azərbaycandan min kilometrlərlə uzaqda oturanların fərqli fikirləri reallığı dəyişmir. Azərbaycan xalqı əbədi olaraq Qarabağ və Şərqi Zəngəzura dönüb və reallıq bu gün Cəbrayılda keçmiş məcburi köçkünlər üçün inşa edilmiş evlərdir, öz dədə-baba yurdlarına qayıdan azərbaycanlılardır. Məgər konqresmenlər bilmir ki, onların "Dağlıq Qarabağın siyasi liderləri" kimi təqdim etdikləri şəxslər müharibə caniləridir, Xocalı cəlladlarıdır, silah dəllalları, maliyyə fırıldaqçıları, əli hər cür çirkin işlərə bulaşmış oliqarxlardır?! Niyə ABŞ Xocalı soyqırımını törətməklə qürrələnənləri müdafiə edir, separatçılara viza verir, onlara qucaq açır?! Bu caniləri azad etməyə çağıranlar bircə dəfə olsun 30 ildən artıqdır ki, taleyi bilinməyən 4 min azərbaycanlı itkinlə bağlı səsini çıxarırmı?!".

### Konqresmenlər Xocalı qatillərinin azad olunmasını istəyir

Əslində, konqresmenlərin "demokratik" ölkə hesab etdiyi Ermənistan 30 il başqa ölkənin ərazisini işğalda saxlamış, etnik təmizləmə törətmiş, milli müstəsnalıq xəstəliyinə tutulmuş, indinin özündə də hərbi caniləri mühakimə etməmiş, əksinə, onları qəhrəmanlaşdırmış bir ölkədir. Təəssüf ki, Azərbaycanın məsuliyyətli və təmkinli davranışlarının müqabilində ABŞ müstəqilliyimizi bərpa etdiyimiz ilk gündən etibarən qeyri-konstruktiv davranıb. 907-ci düzəlişin qəbul edilməsi ilə başlayan anti-Azərbaycan tədbirlərinin ardı-arası kəsilmir. Bu həmin ABŞ-dır ki, Xocalı soyqırımının törədilməsindən, Şuşanın, Laçının işğal edilməsindən sonra Ermənistana deyil, Azərbaycana qarşı sanksiya tətbiq etdi. ABŞ son 30 ildə Azərbaycan xalqına qarşı Ermənistan tərəfindən törədilən müsibətlərə, Azərbaycan ərazilərinin işğalına, Ermənistan ərazisindən və işğal olunmuş Azərbaycan torpaqlarından bir milyondan çox azərbaycanlının qovulmasına, Azərbaycanın mədəni irsinin kütləvi şəkildə dağıdılmasına, Azərbaycanın yüzlərlə şəhər və kəndinin viran qoyulmasına və ərazilərimizdə milyonlarla minanın basdırılmasına göz yumubdur. ABŞ faktiki olaraq Ermənistanı işğal və etnik təmizləməni davam etdirməyə təşviq edib.

### USAID-in ölkəmizdəki fəaliyyətinə son qoyulsun!

Bütün bunların fonunda ABŞ Konqresinin üzvlərinin Dövlət katibi Antoni Blinkenə etdiyi müraciət bu ölkənin ikitərəfli münasibətlərin rəvan şəkildə davam etdirilməsində maraqlı olmadığını göstərir. Azərbaycanın ikitərəfli münasibətləri davam etdirmək əzmini qeyd etməklə bərabər vurğulamaq istərdik ki, bu, yalnız bir tərəfin səyləri ilə mümkün deyil. Ona görə də, qarşı tərəfin davranışları ilə olaqlar adekvat addımların atılması zərurətdir. Azərbaycan və ABŞ arasında müxtəlif illərdə yenidən nəzərdən keçirilməsi üçün deputatlar bir sıra məsələlərlə bağlı XİN başçısına müraciət ediblər.

Həmin məsələlər sırasında Azərbaycan və ABŞ arasında qüvvədə olan müqavilələrə, ələlxüsus, 1997-ci ildə imzalanmış "Azərbaycan Respublikası və ABŞ arasında gələcək hərbi və müdafiə əlaqələri haqqında" Birgə bəyanata və 2013-cü ildə imzalanmış "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında avadanlığın alınması və qarşılıqlı xidmət haqqında" Sazişə xitam verilməsi, yeni müqavilələrin razılaşdırılması və qüvvədə olmuş müqavilələrin uzadılması üzrə danışıqların dərhal dayandırılması daxildir.

Eyni zamanda, millət vəkilləri tərəfindən ABŞ-ın Beynəlxalq İnkişafa Yardım Agentliyi (USAID) və ABŞ-ın qeyri-hökumət təşkilatları tərəfindən Azərbaycanda həyata keçirilən bütün layihələrin dayandırılması və yeni layihələrə icazə verilməməsi, eləcə də USAID-in ölkəmizdəki fəaliyyətinə son qoyulması təklif olunur.

Beləliklə, görünən odur ki, ABŞ Konqresində Cənubi Qafqazda sülhün deyil, gərginliyin davam etməsinə maraqlı olan qüvvələr mövcuddur. Konqresin bir sıra üzvlərinin beynəlxalq hüquqa zidd olaraq işğalçı Ermənistanı və erməni separatizmini dəstəkləməsi qəbuledilməzdir. Ermənipərəst konqresmenlər unutmamalıdır ki, Azərbaycana qarşı qərəzli kampaniyanın aparılması müstəqil siyasətimizə təsir edə bilməz!

*Nardar BAYRAMLI*

# Fransanın növbəti frankofoniya rəzaləti

Azərbaycanın cari ilin noyabr ayında ev sahibliyi edəcəyi COP29 iqlim konfransı ərəfəsində rəsmi Paris ölkəmizin artan beynəlxalq nüfuzuna xələl gətirmək üçün ən müxtəlif çirkin vasitələrə əl atır. Bu günlərdə isə koordinasiyalı fəaliyyətlər həyata keçirən Fransa və Ermənistan beynəlxalq frankofoniya tədbirini növbəti dəfə ölkəmizə qarşı çirkin təbliğat platformasına çevirməyə cəhd göstəriblər. Belə çıxır ki, Yelisey Sarayı mədəniyyətlə bağlı olan bir tədbiri də siyasi çəkişmə meydanına çevirməyi özünə rəva bilir.

Azərbaycan Xarici İşlər Nazirliyinin və Bakı Təşəbbüs Qrupunun (BTQ) yaydıqları bəyanatlarda Fransanın frankofoniya rəzaləti kəskin şəkildə tənqid olunub. Həmçinin Qərbi Azərbaycan İcması Yelisey Sarayının COP29 ərəfəsində Azərbaycanın beynəlxalq imicinə xələl gətirmək cəhdlərini qətiyyətlə pisləyib.

### Fransanın və Ermənistanın iflasa uğrayan məkrli cəhdləri

Əvvəla, fransız dili və mədəniyyəti ilə heç bir bağlılığı olmayan Ermənistanın frankofoniya təşkilatında təmsilçiliyi, hətta quruma sədrlik missiyasının bu ölkəyə həvalə edilməsi suallar doğurur. Bu, başqa bir söhbətin mövzusudur. Qayıdaq frankofoniya tədbirinə. Xatırladaq ki, bundan əvvəl frankofoniya rəzaləti Tunisin Cerba şəhərində baş tutan Beynəlxalq Frankofoniya Təşkilatının Zirvə Görüşü çərçivəsində yaşanmışdı. Belə ki, Zirvə Görüşü çərçivəsində keçirilən Nazirlər iclası zamanı Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan tərəfindən təxribat xarakterli və sözügedən Təşkilatın üzvlərinin guya Azərbaycana qarşı mövqe tutmaları ilə bağlı təhriflərlə dolu bəyanat səslənib. Bundan başqa, Cerba Zirvə Görüşünə hazırlıq mərhələsində Fransanın birbaşa dəstəyilə Zirvə Görüşünün yekun sənədləri olan Cerba Bəyannaməsinin və Frankofoniya ərazisində böhran vəziyyətlərinə həsr olunmuş qətnamə layihəsinin ilkin mətnlərinə Azərbaycan əleyhinə birtərəfli, qərəzli və təhriflərlə dolu təhrikçi ifadələr daxil edilərək, üzv dövlətlərin müzakirəsinə təqdim olunub. Lakin qurumdakı Azərbaycana dost dövlətlər həm Ararat Mirzoyanın bəyanatına, həm də qətnamə layihəsində yer alan ölkəmizə qarşı müddəalara kəskin etirazlarını bildiriblər. Bununla da qətnamə layihəsində Azərbaycanı birbaşa hədəf alan hər hansı ifadənin daxil edilməsinə imkan verilməyib.

Bundan nəticə çıxartmayan Makron iqtidarı eyni rəzaləti növbəti frankofoniya tədbirində təkrarlamaqdan çəkinməyib. Lakin Fransanın və Ermənistanın təxribat cəhdləri bu dəfə də iflasa uğrayıb. Əvvəla, Xarici İşlər Nazirliyindən bildirdiyi kimi, üzv dövlətlər arasında mədəni-humanitar əməkdaşlıq sahəsində mandata malik olan Beynəlxalq Frankofoniya Təşkilatının Fransanın açıq dəstəyi və himayəsi ilə Ermənistan tərəfindən sui-istifadə edilməsi ciddi təəssüf doğurur. Tədbirdə Fransa Azərbaycanın üzv olmadığı bu təşkilatda onun suverenliyi və ərazi bütövlüyünü hədəf alan müddəaları təşkilatın sammitinin qətnaməsinə daxil etmək üçün sədrlik statusunu kobud şəkildə istismar edib, çoxtərəfli diplomatik formatlarda sənədlərin hazırlanması ilə bağlı ümumi qəbul edilmiş praktikanı və elementar çoxtərəfli danışıq qaydalarını açıq şəkildə pozaraq, bir neçə üzv dövlətin məlum müddəalara bağlı təkliflərini müzakirə etməyə belə imkan verməyib.

Nəticə etibarilə, Ermənistan tərəfinin guya BFT Sammitində qəbul olunduğunu iddia etdiyi müddəalar əslində təşkilatda konsensus qazanmayıb, bəzi müddəalara etiraz olaraq sənədə qeyd-şərt əlavə edilib. "Beləliklə, hətta Azərbaycanın üzv olmadığı bir platformada belə Ermənistanın özünün saxta hekayələrini beynəlxalq ictimaiyyətə qəbul etdirmək cəhdləri Fransanın açıq dəstəyinə baxmayaraq iflasa uğrayıb", - deyə XİN-in bəyanatında vurğulanır.

Burada bir məqama ayrıca diqqət çəkmək istərdik. Məlumdur ki, Ermənistan rəsmiləri davamlı şəkildə "sülh sazişini imzalamağa hazırıq" səslənmələri edirlər. Belə səslənmələr beynəlxalq ictimaiyyəti aldatmaq cəhdlərindən başqa bir şey deyil.









Reallıqda məğlub ölkə sülhyaratma prosesini sadəcə imitasiya edir. Sənəddə vurğulandığı kimi, BFT çərçivəsində baş verənlər Ermənistanın sülh prosesində maraqlı olmadığını, mümkün hər fürsətdə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qəsd etmək niyyəti güddüyünü və Fransanın özünün dar maraqları naminə Ermənistandan istifadə etməsinin təzahürü kimi dəyərləndirilməlidir.




### Bakı Təşəbbüs Qrupu çağırış edir

"Mədəniyyət profilli qurum olan Beynəlxalq Frankofoniya Təşkilatının ona üzv olmayan suveren ölkə əleyhinə və ümumiyyətlə, mandatından kənar mövzuya dair sənədlər qəbul etməsi bu təşkilatın nüfuzuna ciddi xələl gətirməklə yanaşı, onun Fransa tərəfindən digər dövlətlərə qarşı təzyiq vasitəsi kimi istifadə olunduğunu, siyasi alət rolunu oynadığını nümayiş etdirir". Bu fikirlər isə Bakı Təşəbbüs Qrupunun bəyanatında öz əksini tapıb.

Fransa 500 illik müstəmləkəçilik tarixində öz nəzarətində saxladığı ərazilərdə ən qəddar kolonializm siyasəti həyata keçirib və indi də davam etdirilir. Bu gün Kanakidə, Fransız Polineziyasında, Qəmərin Mayot adasında, Martinikada, Qvadelupada və digər müstəmləkə ölkələrində Yelisey Sarayının neokolonializm siyasətinin ən eybəcər təzahürlərinə, ağır fəsadlarına rast gəlmək mümkündür. Fransa keçmiş və indiki müstəmləkələrində məqsədli şəkildə milli kimliyin məhv edilməsi siyasəti yürüdür və təəssüf ki, böyük ölçüdə buna nail olmuşdur. Beynəlxalq hüquqa hörmət çərçivəsində dünyada dekolonizasiya prosesinin irəlilədilməsi və (neo) müstəmləkəçiliklə mübarizə sahəsində fəaliyyət göstərən BTQ Beynəlxalq Frankofoniya Təşkilatına fransız əsarəti altında olan dənizaşırı ərazilərdə Fransa hökuməti tərəfindən törədilən cinayətlərə diqqət yetirməsinə çağırış edib.

*Mübariz FEYİZLİ*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış" istiqaməti üzrə hazırlanmışdır**

# 117 ailənin yurd həsrəti bitdi!

## Cəbrayıl sakinlərinə qucaq açdı...

30 ildən çox Vətən həsrəti ilə yaşamış keçmiş məcburi köçkünlərimizin köç karvanları bir-birinin ardınca əzəli və əbədi torpaqlarımıza istiqamət götürür. Sentyabrın 26-da 44 günlük Vətən müharibəsinin 4-cü ildönümü ərəfəsində həsrətin bitdiyi ünvanlar sırasına Cəbrayıl da qoşuldu. Beləliklə, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində yenidən qurulan Cəbrayıl ilk sakinlərini qarşıladı.

İlkin olaraq 36 ailədən ibarət 117 nəfərin ən ülvi arzuları reallığa çevrildi. Xalqımız bayram əhval-ruhiyyəsi yaradan yeni qayıdış müjdəsinə sevindi. Sentyabrın 28-də daha bir köç karvanı Bakı şəhərinin Qaradağ rayonundan Cəbrayıla yola düşüb. Bu dəfə 41 ailə (124 nəfər) köçürülüb. Sentyabrın 30-da isə növbəti köç karvanı ilə 40 ailə (123 nəfər) Cəbrayıl şəhərinə yola salınıb.

**Cəbrayıl sakinlərinin hazırkı sayı 364-dür...**

Beləliklə, indiyədək Cəbrayıl şəhərində 117 ailənin (364 nəfər) daimi məskunlaşması təmin edilib. Sakinlər şəhərdə yeni inşa olunan yaşayış kompleksində yerləşiblər. Qeyd edək ki, 2021-ci il oktyabrın 4-də Prezident İlham Əliyev Cəbrayıl şəhərinin bərpasının təməl daşını qoyub.

Doğma yurda qayıdan Cəbrayıl sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

1993-cü ildə işğal olunan Cəbrayılın Zəfər tariximizdə xüsusi yeri var. Böyük qayıdışımız 2016-cı ilin Aprel döyüşlərində Cəbrayılın Cocuq Mərcanlı kən-



dinin azad olunması ilə başlayıb. İkinci Qarabağ müharibəsindəki ilk uğurlarımızdan biri məhz Cəbrayıl ilə bağlıdır. Döyüşlərin birinci həftəsində şəhərin azad olunması Vətən müharibəsinin mühüm hadisəsinə çevrildi. Cəbrayıl şəhəri azadlığına qovuşduqdan sonra məlum oldu ki, şəhərdən əsər-əlamət qalmayıb, bütün binalar yerlə yeksan edilib.

**Cəbrayıl yeni dövrə qədəm qoyur**

Mövzu barədə fikirlərini "Yeni Azərbaycan"a bölüşən Milli Məclisin Cəbrayıl-Qubadlı seçki dairəsi üzrə deputatı Ceyhun Məmmədov bildirib ki, artıq Cəbrayıl sakinlərinin də sevinclərinin həddi-hüdudu yoxdur. Millət vəkili qeyd edib ki, Cəbrayıl yeni bir dövrə, yeni mərhələyə qədəm qoyur: "Cəbrayılda uzun müddətdir bərpa-quruculuq işləri həyata keçirilirdi. Artıq binaların bir hissəsi hazırdır. Bir sıra binada hələ də işlər gedir. Məlumdur ki, sentyabrın 26-da Cəbrayıla birinci köç baş tutdu. Çox sevindiricidir ki, bu gün Cəbrayıllılar öz yurdlarında yaşayırlar. Biz bunu səbirsizliklə gözləyirdik. İlkin mərhələdə sakinlərin bir hissəsinin köçürülməsi qeydə alınıb, 117 nəfər doğma torpağına qovuşdu. Cəbrayıla üçüncü köçən sonra isə sakinlərin sayı 364 nəfər oldu. Bu, yalnız cəbrayıllıların deyil, bütün Azərbaycan xalqının sevincinə və qürur hissi yaşamasına səbəbdir".

**Hər bir şərait yaradılıb**

Deputatın sözlərinə görə, bu gün Cəbrayılda bir sıra müəssisələr var: "Araz Vadisi İqtisadi Zonası" bir müddətdir ki, qurulur. Orada xeyli işlər görülüb. Həmçinin Cəbrayılda xəstəxana da tikilir. Bu gün həmin stukturlar öz fəaliyyətini uğurla davam etdirirlər. Dövlət qurumlarının fəaliyyəti üçün şərait yaradılıb. Hesab edirəm ki, Cəbrayılda əhalinin məskunlaşması üçün şərait və imkan var. Ən qısa vaxtda bütün Cəbrayıl sakinləri orada yaşayıb, məskunlaşacaqlar. Biz də bunun şahidi olacağıq".

**Cəbrayılın kəndlərinə də köç olacaq!**

C.Məmmədov qeyd edib ki, bu gün təkcə Cəbrayıl yox, ümumiyyətlə işğaldan azad olunmuş bütün torpaqlarımıza qayıdış bizim üçün çox sevindiricidir: "Sözün həqiqi mənasında bu günü çox gözləmişik. Bunun davamı gələcək, təkcə Cəbrayılın özünə yox, kəndlərə də köç olacaq".

*Yeganə BAYRAMOVA*

# Təmiz ətraf mühit və "yaşıl" inkişaf üçün...

## Karbon emissiyasının azaldılması "yaşıl iqtisadiyyat"a keçidi və inkişafı sürtələndirəcək

Azərbaycan hökuməti bərpa olunan enerjidən istifadənin daha da genişləndirilməsi, daha az karbon istifadəsinə hesablanmış nəqliyyat vasitələrinin artırılmasına, enerji səmərəliliyinin artırılması, metan emissiyalarının azaldılması və hidrogen kimi innovativ texnologiyaların tətbiqi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirməklə bu sahədə kifayət qədər uğurlar əldə edib. Bununla yanaşı, ekoloji təmiz texnologiyaların və "yaşıl" texnologiyalara tətbiqinin geniş yer verilməsi, ekoloji baxımdan əlverişli olan mənbələrin istifadəsinin artırılması və istehsalın müasir "yaşıl iqtisadi resurslara" əsaslanması başlıca hədəf prioritetləridir. "Azərbaycan-2030" konsepsiyasında müəyyən edilmiş beşinci milli prioritet - "Təmiz ətraf mühit və "yaşıl" inkişaf ölkəsi də bu prinsiplərə əsaslanır və əsas məqsəd karbonzuslaşdırma yönümlü idarəetmənin təmin olunmasıdır.

Qarşıda duran ən başlıca tədbirlərdən biri istilik effekti yaradan qazların - karbon dioksid ($CO_2$), metan ($CH_4$), azot oksidi və xlor-fülor birləşmələrin konsentrasiyasının azaldılmasıdır. Azərbaycan ətraf mühitə emissiya edilən karbon üzrə payı hədsiz dərəcədə azdır, dünyadakı karbon emissiyasının 0,13 faizi Azərbaycanın payına düşür. Bu nisbət kifayət qədər kiçik olsa da, qlobal çağırışlardan geri qalmayaraq karbonsuzlaşdırma strategiyalarını inkişaf etdirmək niyyətindədir. Həmçinin "yaşıl keçid"in əsas iştirakçılarından biri olan ölkəmiz "yaşıl layihələr"ə investisiyaları təşviq etmək üçün beynəlxalq birlik qarşısında 2040-cı ilədək emissiyaları 40 faiz azaltmaq öhdəliyi götürüb. Ona görə də qlobal çağırışlara müsbət töhfə vermək üçün karbonsuzlaşdırma strategiyalarının inkişaf etdirilməsi əsas ssenarilərdən biri kimi uzunmüddətli baxışı əks etdirir.

### Karbon emissiyası ÜDM-i azaldır

Karbon emissiyasının azaldılması "yaşıl iqtisadiyyat"a keçid üçün də əsas stimullardan biridir. Hazırda dünyada iqlim dəyişmələri fonunda azalan təbii ehtiyatlar və bəşəriyyətin artan tələbatı digər resursların istehlakını yüksəldir. Çünki iqlim dəyişikliyi ekoloji tarazlığı pozaraq biomüxtəlifliyə də təsir edir və mövcud istehsal blokalarını zəiflədir. Dünya Bankının hesablamalarına əsasən, iqlim dəyişikliyinin təsiri nəticəsində 2050-ci ilədək qlobal ÜDM illik 1,5-5 faiz arası azalacaq. Həmin tələbatların ödənilməsi isə müasir rəqəmsal və "ağıllı texnologiyalar"ın geniş tətbiqi yolu ilə "yaşıl iqtisadiyyat" quruculuğundan keçir. Bu gün inkişaf etmiş ölkələrin hər biri üçün dayanıqlı inkişafın əsas atributu "yaşıl maliyyə"ni təmin edən "yaşıl resurs"ların istehsalı və emalının əhəmiyyətli şəkildə artırılmasıdır.

Ona görə də Azərbaycan üçün de-karbonizasiya həm ekoloji hədəflərə çatmaq, həm də müasir innovativ iqtisadiyyat qurmaq baxımından xüsusi əhəmiyyət kəsb edir. Ölkəmiz beynəlxalq təcrübəyə əsaslanaraq "yaşıl iqtisadiyyat"a keçid üçün müxtəlif iqtisadi alətlərdən istifadə etməyi planlaşdırır. Strateji Yol xəritəsinə əsasən, bu sahəyə biznesi həvəsləndirmək üçün müxtəlif iqtisadi təşviqlərin verilməsi nəzərdə tutulur. Onlardan ən vacibi "yaşıl iqtisadiyyat"ın maliyyə ehtiyaclarının ödənilməsidir.

### "Yaşıl maliyyə" alətləri üçün çərçivə sənədi hazırlanır

Mərkəzi Bank (MB) tərəfindən hazırlanmış Dayanıqlı Maliyyə üzrə Strateji Yol Xəritəsində maliyyə sektorunda da "yaşıl artım" alətlərinə xüsusi üstünlük verilməsi nəzərdə tutulub. Bu məqsədlə "yaşıl sərmayələr"in motivasiyası yönündə addımlar atılacaq. Son bir ildə ölkəmizdə, xüsusilə də işğaldan azad edilmiş ərazilərdə bərpa olunan enerji mənbələrinə xarici investorların cəlb edilməsi və bir neçə şirkətlə sazişlərin imzalanması bu ekosistemin infrastrukturunun yaradılması istiqamətində ilkin addımlardır. Bank, sığorta, investisiya şirkətlərinin biznes icması ilə bu istiqamətdə birgə maliyyələşməyə keçidi üçün yaxın zamanlarda qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsi də istisna deyil. Bundan başqa, səhmdar şirkətlərin "yaşıl istiqrazlar" emissiyasına təşviqi üçün qiymətli kağızlar bazarının emitentləri ilə fəaliyyət planı hazırlanacaq. Bu alətlərin buraxılışının stimullaşdırılması üçün hüquqi çərçivənin hazırlanması nəzərdə tutulur.

Alternativ enerji mənbələrinə biznes nümayəndələrini həvəsləndirmək üçün "yaşıl kredit"lərin verilməsi də əsas prioritet hədəf kimi müəyyənləşib.

Bu siyasət tədbirlərinin əsas məqsədi ekoloji layihələrə, bərpa olunan enerji mənbələrinə sərmayə axtaran biznes təşkilatlarına, ekoturizm sənayesinə, eləcə də təmiz kənd təsərrüfatı məhsulları istehsalçılarına güzəştli və asan kreditlərin verilməsini təşviq etməkdir. MB hesab edir ki, hazırda Azərbaycanın maliyyə sektoru tərəfindən verilmiş kreditlərin təxminən 50 %-i ekologiyaya həssas sektorları əhatə edir. Belə ki, krediti əldə edən təşkilatların icra etdiyi layihələr sırasında istixana qazlarını artıran sektorlar, kənd təsərrüfatı və tullantılar sektorları xüsusi yer tutur. Ancaq bunlar hələlik qanedici deyil və buna görə də, "yaşıl istehsal" sektorunun əhatəsini genişləndirmək və fərdi biznesi bu sahəyə daha çox yönəltmək üçün təşviqedici kredit alətlərinin tətbiqinə daha çox üstünlük veriləcək.



### Karbon vergisi de-karbonizasiya prosesini də sürətləndirir...

Karbonsuz iqtisadiyyata keçidin institisional-maliyyə çərçivəsinin hazırlanması ilə yanaşı, bu sahədə fiskal tənzimləmə, vergi-gömrük səmərəliliyinin təmin olunması da başlıca şərtlərdən biridir. Bu məqsədlə ekoloji mühiti ağırlaşdıran sənaye sektoru üçün vergi nəzarəti tətbirlərinin gücləndirilməsi və müxtəlif məhdudlaşdırıcı addımların atılması planlaşdırılır. Məhdudlaşdırıcı vasitələrdən biri kimi dünyada geniş yayılmış vergi alətlərindən biri olan karbon vergisinin tətbiqi nəzərdən keçirilir.

Xüsusilə də "yaşıl sənaye"nin dünyada geniş vüsət alması fonunda Azərbaycan hökuməti sənayeləşmənin ekoloji təsirlərinin azaldılması üçün vergitutma mexanizminin müasir alətlərinə yer verilməsi də ümumi siyasətin tərkib hissəsini təşkil edir. Çünki karbon vergisinin tətbiqi sayəsində biznesin ənənəvi sənaye metodlarından yeni sənaye istehsalına keçidi stimullaşır. Biznes icması "yaşıl vergi"lər sayəsində bərpa olunan enerji mənbələri və "yaşıl texnologiyalar"dan geniş istifadə edir, tikinti və sənayedə daha çox "yaşıl texnologiyalara" üstünlük verir, nəticədə bu mexanizmlər de-karbonizasiya prosesini də sürətləndirir. Ona görə də, ölkəmizdə aşağı emissiyalı məhsul və sənayeləri təşviq edən qanunvericilik aktlarının təkmilləşdirilməsi, "yaşıl istehsal"a iqtisadi stimulların verilməsinin artırılması gözlənilir.

### Beynəlxalq "yaşıl əməkdaşlıq"...

Azərbaycan hökumətinin de-karbonizasiya təşəbbüslərini dəstəkləyən beynəlxalq qurumlar bu istiqamətdə ölkəmizlə əməkdaşlıq edəcəyini bildirir. Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) investisiya və siyasət təşəbbüsləri vasitəsilə Azərbaycanın karbonsuzlaşdırma proqramını dəstəkləmək üçün fəal işləyir. Bankın Qafqaz üzrə regional direktoru Katarina Byorlin Hansenin fikrincə, bu çərçivəyə əsasən, Qaradağda ilk özəl Günəş elektrik stansiyasının tikintisinə sərmayələr qoyulub, son illərdə investisiyalarımızın 70 faizindən çoxu "yaşıl" iqtisadiyyata yönəldilib. Növbəti əməkdaşlıq fazasına əsasən, AYİB-lə hökumətin əməkdaşlığı bu səmtdə inkişaf etdiriləcək.

*E.CƏFƏRLİ*

# Dövlətin dəstəyi və zəmanəti ilə...

## Sahibkarlara güzəştli şərtlərlə 500 milyon manatdan artıq kredit verilib

Azərbaycanda sahibkarların investisiya layihələrinin güzəştli şərtlərlə maliyyələşdirilməsi son illərdə daha da yaxşılaşıb. 2024-cü il oktyabrın 1-nə olan məlumata görə, indiyədək müvəkkil banklar tərəfindən İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) zəmanəti ilə sahibkarlara güzəştli şərtlərlə 500 milyon manatdan artıq kredit verilib ki, bunun da 65 milyon 155 min manatı yanvar-sentyabr aylarını əhatə edir. Bu mexanizm çərçivəsində bu günədək zəmanət verilmiş kreditlərin orta müddəti 30 ay, İKZF tərəfindən sahibkarlıq kreditləri üzrə hesablanmış faizlərin bir hissəsinə subsidiyanın verilməsi hesabına sahibkarların ödəyəcəyi kreditlər üzrə faktiki faiz dərəcəsi 6 faiz, bir sahibkara ayrılan kreditin məbləği isə 30 min manatdan 5 milyon manatadək təşkil edib.

Zəmanətli kreditlərin yönəldildiyi əsas sahə sənaye məhsullarının istehsalı və emalı, kənd təsərrüfatı və qida sənayesidir. Digər əsas sahələr isə tikinti, turizm və infrastrukturun inkişaf etdirilməsi ilə bağlı sahələr, maşın və avadanlıq istehsalı, ticarət və xidmət sektorlarıdır. Fondun zəmanət və faiz subsidiyası hesabına sahibkarlara ayılan kreditlər vasitəsilə maliyyələşən layihələrdə 6500 yeni iş yerinin yaradılması nəzərdə tutulub.

### Qeyri-neft sektorunun inkişafı naminə...

Ölkəmizdə qeyri-neft sektorunun inkişafı, biznes və investisiya mühitinin əlverişliliyinin daha da artırılması, sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi həyata keçirilən iqtisadi siyasətin prioritetlərindəndir. Sahibkarlara müvəkkil banklardan manatla aldıqları kreditlərə zəmanət və kreditlər üzrə hesablanmış faizlərə görə subsidiyanın verilməsi də strategiyanın əsas tərkib hissəsidir. Qeyd edək ki, güzəştli kredit kiçik, orta və böyük həcmli olmaqla 3 maliyyə güzəşti üzrə təsnifləşdirilib. Kiçik həcmli kreditin məbləği 5-50 min manatadək olmaqla 3 ilədək verilir. Kredit dərəcəsi 5 faizə bərabərdir. Orta həcmli kreditin məbləği 50 min - 1 milyon manat civarında müəyyən edilib. Faiz dərəcəsi 5-ə bərabər olan bu kreditlərin qaytarılma müddəti 5 ilədək nəzərdə tutulub. Maliyyə tutumu 1-10 milyon manat təşkil edən böyük həcmli kreditlərin də faizi 5, qaytarılma müddəti isə 10 ilədək müəyyənləşib.

Ümumilikdə, biznesin maliyyə əlçatanlığının təmin edilməsi məqsədilə dövlətin güzəşt siyasətinin əsas məqsədi qeyri-neft sənaye sahələrinin inkişafı, kənd təsərrüfatı sahəsinin inkişafı üzrə istehsal yönümlü və logistik xidmət layihələrinin dəstəklənməsi, anbar komplekslərinin qurulması, turizmin inkişafında dövlətin dəstəkləyici rolunun artırılması, balıqçılıq və akvakultura təsərrüfatlarının yaradılması, "yaşıl", rəqəmsal inkişaf və innovasiya yönümlü sahələrə maliyyə qayğısının göstərilməsindən ibarətdir.

### 49 mindən çox layihəyə 3,2 milyard manat güzəştli kredit...

İZKF-nin kredit zəmanəti və subsidiyalaşdırılması siyasəti ilə yanaşı, biznesin maliyyə təminatının həllində birbaşa mərkəzi maliyyə institutu rolunu oynayan Sahibkarlığın İnkişafı Fondunun (SİF) sahibkarlığa dəstəyi də artmaqdadır. 2024-cü ilin 8 ayı ərzində Fond (SİF) tərəfindən müvəkkil kredit təşkilatları vasitəsilə 3507 layihənin maliyyələşdirilməsinə 138,3 milyon manat güzəştli kredit verilib. Ümumilikdə, SİF tərəfindən 2002-ci ildən indiyədək 49 min 500-dən çox layihəyə, ümumilikdə, 3,2 milyard manat məbləğində güzəştli kredit verilib.

Cari ilin ötən aylarında sahibkarların investisiya layihələrinə verilmiş güzəştli kreditlərin sayına görə "Bank Respublika" ilk yerdə dayanır. Bu bank 1246 layihəni maliyyələşdirib. İkinci yerdə 733 layihə üzrə "Rabitəbank" dayanır. "AccessBank" 501 sahibkarlıq subyektini maliyyələşdirib. "Yelo Bank" 368, "Aqrarkredit" təşkilatı isə 187 layihənin maliyyələşməsini təmin edib. Eyni zamanda, Beynəlxalq Bank kreditləşmədə əsas maliyyə institutu kimi fərqlənib.

### Azad ərazilərdə çalışan biznesə güzəşt və dəstəklər...

Azərbaycan hökumətinin sahibkarlığın dəstəklənməsində yeni yanaşması 2020-ci ildən sonra azad edilmiş ərazilərdə biznes imkanlarının yaradılmasına yönəlib. 2022-ci ildən bəri bu istiqamətdə maliyyələşdirməni həyata keçirən SİF indiyədək 10 layihə üzrə 21,6 milyon manat güzəştli krediti təmin edib. Digər istiqamət sahibkarların işğaldan azad olunmuş ərazilərdə reallaşdıracaqları investisiya layihələrinə cəlb edəcəkləri kommersiya kreditləri üzrə zəmanətin verilməsidir. Bu çərçivəyə əsasən, Fond tərəfindən 90 faizədək zəmanətin təqdim edilməsi və eyni zamanda, faiz dərəcəsinin 10 faiz bəndinin subsidiyalaşdırılması nəzərdə tutulur. Həmçinin kreditin müddətinin yarısından çox olmamaqla, 36 aya qədər güzəşt müddəti tətbiq edilir. 2024-cü il fevralın 1-dən bu mexanizm üzrə aktiv şəkildə fəaliyyətə başlayan SİF tərəfindən 6 sahibkarlıq subyekti üzrə 15,6 milyon manat dəyərində kredit üçün 12,2 milyon manat dövlət zəmanəti təmin edilib və artıq subsidiyalaşdırmaya başlanılıb.

Bu motivasiyalar nəticəsində azad ərazilərdə fəaliyyət göstərən sahibkarların sayı artaraq 2024-cü ilin birinci yarısında 1700-ü ötüb. Hüquqi şəxslərin və yeni müəssisə və təşkilatların sayı isə 160-a çatıb.

Sahibkarlığın İnkişafı Fondu və İqtisadi Zonaların İnkişafı Agentliyi bu bölgədə çalışan sənaye parklarının rezidentləri ilə də davamlı tədbirlər keçirərək onların maliyyə təminatı ilə bağlı məsələləri öyərinir, dəstək tədbirləri istiqamətində araşdırmalar aparılır. Ağdam Sənaye Parkı və "Araz Vadisi İqtisadi Zonası"nda keçirilən görüşlərdə sahibkarların güzəştli kredit, zəmanət və subsidiya mexanizmləri ilə bağlı təkliflər dinlənilib və onların maliyyə qurumlarının vəsaitlərinə çıxışlarının asanlaşdırılması üçün əlavə addımların atılacağı bildirilib. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına investisiya imkanlarının və biznes perspektivlərinin qiymətləndirilməsi, dövlət-özəl sektor əməkdaşlığı modeli üzrə layihələrin həyata keçirilməsi istiqamətində işlər davam etdirilir.




### "Yaşıl güzəşt"lər: 136 biznes layihəsinə 27 milyon manat...

Dayanıqlı istehlak və istehsala nail olunmasında, eləcə də resurs və enerji səmərəliliyinin artırılmasında "yaşıl biznes"lərin əhəmiyyətli rolu var. Bu səbəbdən sahibkarların "yaşıl layihə"lərinin maliyyələşdirilməsi prioritetlərdən biridir. Fond tərəfindən bu sahədə çalışan biznesə də diqqət artırılıb və sənaye, o cümlədən kənd təsərrüfatı məhsullarının emalı sahələrində fəaliyyət göstərən, eləcə də "yaşıl layihələr" həyata keçirən sahibkarlara güzəştli kreditlərin verilməsinin stimullaşdırılması məqsədilə məqsədli tədbirlərə başlanılıb. Müvəkkil kredit təşkilatlarının nümayəndələri ilə birlikdə həyata keçirilən "Sənaye və yaşıl layihələrə dəstək" aləti də məhz bu sahənin güzəştli kreditlərlə təminatının artırılmasından ibarətdir. Layihənin ilk mərhələsində müvəkkil kredit təşkilatları tərəfindən 136 biznes layihəsinə 27 milyon manata yaxın güzəştli kredit ayrılıb. Belə layihələrdən biri SİF tərəfindən 2 milyon manat güzəştli kreditlə təmin edilmiş "Hacıqabul Quşçuluq Şirkəti" MMC-nin quşçuluğun inkişafı layihəsi "yaşıl biznes" üçün ən yaxşı modellərdən biri hesab edilir. Belə ki, təsərrüfatda quraşdırılmış Günəş panelləri ay ərzində 510 meqavat enerjiyə qənaət edir və bu, aylıq enerji tələbatının 45 faizi deməkdir. Hazırda azad olunmuş ərazilərdə icra olunan "yaşıl layihələr" üzrə də kredit təminatı və zəmanət mexanizminin tətbiqi ilə bağlı tədbirlər görülməkdədir.

*E.CƏFƏRLİ*

# İsveçrədə yaşayan jurnalist Əli Kərimliyə mənəviyyat və dövlətçilik dərsi keçdi

## AXCP sədri məqsədli şəkildə ermənipərəst konqresmenləri dəstəkləyir

ABŞ-ın bəzi ermənipərəst konqresmenlərinin ölkəmizə ünvanladığı "çağırış" haqlı olaraq Azərbaycan cəmiyyəti tərəfindən etirazla qarşılanır. Çünki ənənəvi və qondarma "siyasi məhbus" iddiası ilə "gündəmə gəlmək" istəyən konqresmenlərin alt məqsədi hər kəsə aydındır - onlar bu dəfə "siyasi məhbus" görüntüsü altında aylardır ki, təbliğatını apardıqları erməni separatçılarına "azadlıq" tələb edirlər.



Azərbaycanın milli maraqlarına qarşı çıxan redikül müxalifət isə "ənənəsinə" sadiq qalaraq bu dəfə də ermənipərəst konqresmenləri dəstəklədi. AXCP sədri Əli Kərimli necə ki, aylar öncə "Dağlıq Qarabağ ermənilərinin hüquqlarının müdafiəçisi" və "ermənipərəst xorun yeni solisti" Ben Kardinin səsinə "səs" vermişdisə, bu dəfə də eyni mövqeni tutdu - ABŞ konqresmenlərinin "çağırışını" dəstəklədiyini bildirdi. Amma onun erməni siyasətinin təbliğatçılarına verdiyi dəstək cəmiyyətin ayrı-ayrı nümayəndələri tərəfindən detallı şəkildə ifşa edilir.

İsveçrədə yaşayan azərbaycanlı jurnalist Elbəyi Həsənli sosial şəbəkədə bildirib ki, sözügedən 60 nəfər qondarma "Dağlıq Qarabağ respublikası"nın qondarma rəhbərlərinin və əlində silah Azərbaycana qarşı döyüşmüş hərbi əsirlərin də azad edilməsini tələb edir. O, Əli Kərimlinin konqresmenlərə dəstək üçün yazılmış bəyanatında son dərəcə önəmli olan bu məsələnin üzərindən MƏQSƏDLİ şəkildə sükutla keçdiyini deyib: "Azərbaycanın 20 faiz torpaqları 30 il ərzində erməni işğalı altında olub. Amerikanın siyasi elitası belə toplum halında Ermənistana heç olmasa 1 dəfə müraciət edərək deyibmi ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərindən çıxın. Belə bir şey nəsə mənim yadıma gəlmir... Əli Kərimli buyurur ki, Amerika konqresmenləri haqlı olaraq Azərbaycanı Ermənistanla sülh müqaviləsi bağlamağa çağırır. Bu da Azərbaycanın milli maraqlarına uyğundur. Ermənistan sülh istəyirmi? İstəyir. Azərbaycan sülh istəyirmi? İstəyir. Bəs sülh müqaviləsi niyə bağlanmır? Çünki Ermənistan Qərbin marağını ehtiva edən öz şərtləri daxilində sülh istəyir. O şərtin daxilində Zəngəzur dəhlizi varmı? Yoxdur".

"Bəs İlham Əliyev nə deyir? Deyir ki, Zəngəzur "olmazsa-olmaz" məsələsidir. Zəngilandan Naxçıvana gedən Azərbaycan vətəndaşı maneəsiz Ermənistan ərazisində hər iki istiqamətə gedib-gələ bilər. Əli Kərimli bunu niyə istəməsin ki? Yəni Azərbaycanın istədiyi sülh sazişində bu məsələ xüsusi çəkiyə malikdir. Mən hələ Ermənistan konstitusiyasında olan Azərbaycan və Türkiyəyə torpaq tələblərindən danışmıram", - deyə bildirən E.Həsənli vurğulayıb ki, konqresmenlərin müraciətinə dəstək verən Əli Kərimli niyə demir ki, məhz Amerika sülh müqaviləsinin imzalanmasına imkan vermir. Çünki Amerika Zəngəzur dəhlizinə Rusiyanın nəzarət etməsini istəmir: "Azərbaycanın İran üzərindən Zəngəzur dəhlizinə paralel yol çəkməsini də Amerika süngü ilə qarşılayır. Deməli, Amerika Ermənistanın Azərbaycana Rusiyanın nəzarətində olacaq Zəngəzur dəhlizini vermək istəmir, o biri yandan da İrandan paralel yolun keçməsinə qarşı çıxır. Milli maraqlardan gen-bol danışan Əli Kərimli niyə ABŞ-ın yeritdiyi bu anti-Azərbaycan siyasətinə etiraz etmir..."

İsveçrədə yaşayan jurnalist onu da əlavə edib ki, Əli Kərimli və onun tərəfdarları Azərbaycan xalqının dəstəyi ilə iqtidara gələcəklərinə inanmırlar.

***SADİQ***

# "Liberasyon" qəzeti yazır: Vidadi İsgəndərli gənc fransız qadınına sataşdığı üçün...

## Sevinc O. qızı ermənipərəstləri pis vəziyyətdə qoydu

Uzun illərdir ki, redikül müxalifətin yanaşma kriteriyaları və davranış trayektoriyaları dəyişməz olaraq qalır - baş verən bütün proseslərdə və hadisələrdə əsl mahiyyəti təhrif edərək yalnız dövləti və hakimiyyəti günahlandırmaq onların bir nömrəli vəzifələrinə çevrilib. Ermənipərəst Qərbə xoş gəlmək, əldə etdikləri vəsaitin kəsilməməsi üçün min bir yalanla şantaj, böhtan kampaniyaları aparırlar.

Fransada yaşayan Vidadi İsgəndərlinin ölümü isə ermənilərə yandaşlıq edənlər üçün əsl fürsət yaradıb - erməni lobbisinə xoş gəlmək üçün onlar yenidən fəallaşıblar. Sosial şəbəkələrdə danışanların hərəsi "bir versiya" səsləndirirlər. Amma deyəsən Sevinc O. qızı bu dəfə "ilişib"...

Söhbət ondan gedir ki, bir neçə gün öncə canlı efirində Sevinc O. qızı da Vidadi İsgəndərlinin ölümü barədə danışıb. Bildirib ki, Fransanın "Liberasyon" qəzeti bununla bağlı araşdırma aparıb - məlum olub ki, bir müddət əvvəl Vidadi İsgəndərliyə Fransada analoji hücum edilibmiş və bunun səbəbi isə onun bir gənc fransız xanıma sataşması olub. Bunları deyərkən Sevinc O. qızının qonağı olan Arif Məmmədovun sözün əsl mənasında "sifəti dəyişdi" - mimikası həm qəzəb, həm də təəccüblə dondu. Sevinc O. qızının Vidadi İsgəndərlinin ölümünün məişət zəminində baş vermiş qarşıdurma ilə əlaqəli olması deyəsən A.Məmmədovu "açmadı". Cəmisi bir neçə saatdan sonra müsahibənin videosu dəyişdirildi - həmin hissə kəsilərək müsahibədən çıxarıldı.

Vurğulanmalıdır ki, müsahibənin həmin hissəsinin məqsədli şəkildə kəsilməsi özü bir çox mətləblərdən xəbər verir. Bu kimi versiyaların ortaya çıxması ermənipərəst qüvvələrin mənafeyinə uyğun gəlmir. S.O. qızının dediyi bu fikirlər isə yalan iddialarla gündəmə gələnləri bir mənada həm də tərk-silah edir. Yəqin ki, A.Məməmədovun "tövsiyyəsi" və ya təhriki ilə həmin hissə kəsilib çıxarılıb.

Beləliklə, ortaya yenə də maraqlı bir mənzərə çıxır - erməni lobbisinin əl oyuncağına çevrilmiş rediküllər həqiqətdən qorxduqları qədər də əllərinə düşən bütün fürsətlərdən maksimum istifadə etməyə çalışacaq qədər cılızdırlar. Onlar hətta S.O. qızının ağzından qaçırdığı versiyadan belə qorxurlar - axı belə fikirlər məsələnin siyasiləşdirilməsinə mane olur. Halbuki fransız cəmiyyətinin qadına, qıza qarşı həssaslığı hər kəs üçün bəllidir - beləliklə, V.İsgəndərlinin öldürülməsinin məişət zəminində




baş vermiş hadisə olması qeyri-adi sayıla bilməz.

Məsələnin əsl mahiyyəti ortadadır - anti-Azərbaycan qüvvələr Vidadi İsgəndərlinin ölümündən su-istifadə edir, hadisəni siyasiləşdirərək bir hədəfə cəmləşdirməyə can atırlar. Əlbəttə, burada məqsəd və niyyət aydındır. Görünür ki, bu üsullarla ölkəmizə təzyiq etdiklərini düşünürlər. Anti-Azərbaycan qüvvələrin dağıdıcı ünsürləri öz çirkin siyasi məqsədləri üçün istifadə etdikləri cəhdlər isə hər zaman iflasa uğrayıb. Məntiqsiz cümlələri ilə özü özünü ifşa edən "jurnalist" təəssüf ki, hansısa maraqlardan irəli gələrək Azərbaycanı nüfuzdan salmağa çalışır.

Beynəlxalq güclər Azərbaycanın iqtisadi və siyasi qüdrətini qəbul edir və onunla hesablaşırlar. Lakin son zamanlar günü-gündən güclənən və nailiyyətlər əldə edən Azərbaycan dövlətinin nüfuzuna xələl gətirmək, cəmiyyətdəki sabit və tolerant mühiti pozmaq məqsədilə sosial şəbəkələrdə antiazərbaycançı qüvvələrin "fəallığı" diqqət çəkir. COP29 tədbiri yaxınlaşdıqca anti-Azərbaycan mərkəzlərin və onlarla əlbir olan erməni lobbisinin fəallığının artacağı gözlənilən idi. Təəssüf ki, Azərbaycana qarşı istənilən məsələdə qeyri-obyektiv, qərəzli mövqe tutan bəzi qüvvələr bu mövzuda da eyni mövqe sərgiləyirlər.

# Yaxın Şərqin 1 il 1 günü...

## 50 il 1 gündən sonra başlayan müharibə

Hər şey 2023-cü ilin oktyabrın 7-də 6:30-da, tarixi ərəb-İsrail müharibəsi olan "Yom Kippur müharibəsinin" başlamasının 50-ci ilinin ertəsi günü, şənbə günü və yəhudilərin "Simchat Tövrat" (Tövrat ilə sevinmək) bayramı günü başladı. Artıq 1 il bir gün ötən İsrail - HƏMAS müharibəsinin əsası belə qoyuldu. HƏMAS-ın nəzarətində olan Qəzza zolağından İsrailə 2,5 mindən 5 minə qədər raket atıldı. 2500-dən çox silahlı HƏMAS üzvü isə qurudan, dənizdən və havadan İsrail ərazisinə daxil olmaq istədi. Qarşıdurmanın ilkin mərhələsində 1200 israilli qətlə yetirildi - onların arasında 364 nəfər şəxs musiqi festivalı iştirakçısı idi. Daha 253 nəfər girov götürüldü.

Bu yalnız müharibənin başlandığı gün idi. Qarşıda isə İsraili, Qəzzanı, Fələstini, Yəməni, Livanı, Suriyanı və hətta İranı belə bu və ya digər şəkildə əhatə edəcək ağır bir il dayanırdı...

### Hər iki tərəf səfərbər oldu...

İsrailin cavabı özünü çox gözlətmədi - HƏMAS-ın İsrailin sərhəd bölgələrinə hücumundan qısa müddət sonra Təl-Əviv "Dəmir Qılınclar" adlı antiterror əməliyyatına başladığını elan etdi. İsrailin hərbi-siyasi rəhbərliyi hərbi vəziyyətin tətbiqi mənasını verən və 1973-cü ildən Yom Kippur müharibəsindən sonra tətbiq olunmayan "40 Aleph" adlı xüsusi bənd təqdim etdi. Ehtiyatda olanların səfərbərliyi elan edildi: 48 saat ərzində 300 min nəfər hərbi xidmətə çağırıldı və daha 360 min ehtiyatda olan əsgərlərin çağırılması haqqında qərar verildi.

Cəmisi iki gün sonra, yəni oktyabrın 9-u axşam saatlarında İsrail ordusu bütün yaşayış məntəqələrinin və obyektlərin HƏMAS yaraqlılarından azad edildiyini elan etdi - 10 oktyabrda artıq Qəzza ilə sərhəd nəzarət altına alınmışdı.

HƏMAS-a kütləvi zərbələr isə hücumdan dərhal sonra - oktyabrın 7-dən başlamışdı. İsrail Hərbi Hava Qüvvələri Qəzza zolağında HƏMAS-ın hədəflərinə və ayrı-ayrı silahlı qruplara kütləvi zərbələr endirdi və oktyabrın 9-na kimi 500-dən çox belə obyekt məhv edildi. Oktyabrın 9-dan 10-na keçən gecə ordu tərəfindən Qəzzadakı hədəflərə daha 200-dən çox zərbə endirildi. HƏMAS-ın buna qarşılıq olaraq verdiyi bəyanat isə belə idi: İsrailin hər hava hücumuna cavab olaraq bir israilli girovu edam edəcəklər. Qısa müddət sonra artıq HƏMAS-dan atəşkəslə bağlı anonslar səslənməyə başladı.

### 41 min 870 nəfər həyatını itirib...

Müharibədən cəmisi ay yarım sonra, noyabrın 21-də İsrail və HƏMAS atəşkəs elan etsə də, münaqişə ayrı-ayrı epizodlar üzrə davam edirdi. Ötən bir ildə baş verənləri miqyasına görə sıralasaq, ən dəhşətli faciələrdən biri müharibənin ilk günlərində Qəzza zolağında yerləşən Əl-Əhli Baptist xəstəxanasının raketlə vurulması oldu. Həmin ilin sentyabrında olduğu kimi, bu dəfə də məsuliyyəti hər iki tərəf biri digərinin üzərinə yıxmağa çalışdı - nəticə isə həqiqətən faciəvi idi: hadisə nəticəsində 800-1000 nəfərin öldüyü açıqlandı.

Ötən ilin oktyabrında yaddaqalan məqamlardan biri isə oktyabrın 24-də Qəzzada yerləşən HƏMAS obyektlərindən 400-nə zərbə endirilməsi oldu. ÇAXAL-ın verdiyi açıqlamada HƏMAS-ın hərbi nöqtələrinin vurulduğu bəyan edilsə də, Fələstinin səhiyyə nazirliyi 700-dən artıq fələstinlinin qətlə yetirildiyini bəyan etdi.

Noyabrda isə İsrail ordusu quru əməliyyatı başlayandan bəri HƏMAS-ın 11 nəzarət punktunu ələ keçirdiyini bəyan etdi. 3300 quru hədəfi İD-nin döyüş təyyarələrinin zərbələri ilə məhv edilmişdi. İki ay ərzində Qəzzada 12 xəstəxana, 32 kiçik tutumlu klinika fəaliyyətini dayandırmışdı.

İsrail ordusunun endirdiyi zərbələr nəticəsində ötən 1 ildə Qəzzada həlak olan fələstinlilərin sayı 41 min 870 nəfər təşkil edir. Ümumilikdə isə münaqişədən 97 166 insan zərər çəkib.



### Qəzzada başladı, Livanda davam etdi...

Sonradan müharibə səngisə də, bu ilin əvvəlindən döyüşlər yenidən start götürdü. Yanvar ayında İsrailin müdafiə naziri Yoav Qalant Qəzza zolağının şimal hissəsində intensiv hərbi əməliyyatların ilk mərhələsinin başa çatdığını açıqladı - onun sözlərinə görə, indi döyüşlər yeni mərhələyə keçirdi və "daha dəqiq" xarakter daşıyacaqdı. Paralel olaraq müharibənin əhatə dairəsi genişlənirdi - paralel olaraq Qəzza ilə eyni vaxtda Livanla İsrail arasında gərginliklər başlamışdı. 2023-cü ilin 10 oktyabrında isə İsrail həm də Suriyaya bir neçə bomba atmışdı. Noyabrın 9-da Suriyadan buraxılan kamikadze PUA (ehtimal ki, Sammad-3) Eylatdakı Tzeelim məktəbinin binasına düşdü. Noyabrın 10-da İsrail ordusu Suriya ərazisinə cavab raket zərbəsi endirdi.

Bu ilin iyulun 27-si axşam saatlarında isə Livandan İsrailin şimalı raket atəşinə tutuldu. Raketlərdən biri həmin vaxt uşaqların olduğu Məcdəl Şəmsdəki (Colan yüksəkliyi) futbol meydançasında partladı. Nəticədə 15 nəfər həlak oldu, bir neçə adam yaralandı. İsrail hökuməti baş verən hücumda "Hizbullah" hərəkatını günahlandıraraq, bu aktı sərt şəkildə cavablandırdı. Düzdür, "Hizbullah" hücumda iştirakını inkar etsə də, ilkin rəy atılan raketlərin məhz təşkilat tərəfindən yönləndirildiyi şəklindədir. Hücumdan dərhal sonra İsrail Xarici İşlər Nazirliyinin məlumat yayaraq Colandakı insidentin bütün qırmızı xətləri keçdiyini vurğuladı. ABŞ-da səfərdə olan İsrailin Baş naziri Netanyahu İsrailə qayıtdı.

Beləliklə, HƏMAS-la davam edən müharibə yeni mərhələyə və yeni coğrafiyaya transfer olundu. Artıq Həm Hizbullah həm də HƏMAS açıq döyüşlərə start vermişdi. Bu ilin avqustun 30-da HƏMAS Siyasi Bürosunun sədri İsmayıl Haniyə Tehranda öldürüldü - İsmayıl Haniyə yeni seçilmiş prezident Məsud Pezeşkianın andiçmə mərasiminə qatılmaq üçün İrana səfər etmişdi. O, gecə saatlarında evində raket hücumu nəticəsində öldürüldü. Qeyd edək ki, İsmayıl Haniyə ötən dövr ərzində öldürülən 5-ci Həmas lideri idi.

Ardından isə Livanda "peycer" partlaması baş verdi - qurğuların partlaması nəticəsində İranın Beyrutdakı səfiri Müctəba Əmani yaralandı. Sentyabrın sonunda isə İsrail ordusunun Livanın paytaxtı Beyrut şəhərinin cənub məhəllələrini bombalaması nəticəsində "Hizbullah" lideri Həsən Nəsrullah öldürüldü. Bombalanma nəticəsində İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH, Silahlı Qüvvələrin elit bölmələri) Qüds Qüvvələrinin komandiri Abbas Nilforuşan, "Hizbullah"ın kəşfiyyat rəisi Həsən Xəlil Yasin, Cənub Cəbhəsinin komandanı Əli Karaki, Hizbullahın Preventiv Təhlükəsizlik Bölməsinin komandiri və İcra Şurasının üzvü Nabil Kauk, Həsən Nəsrullahın şəxsi mühafizə xidmətinin rəisi İbrahim Huseyn Cazini, Həsən Nəsrullahın məsləhətçisi Samir Taufik Diab, "Hizbullah"ın qüvvələrinin formalaşdırılmasına məsul şəxs Abd al-Amir Məhəmməd Siblini, "Hizbullah"ın atəş gücünə məsul şəxs Ali Navaf Ayub də həyatını itirdi. Qəzza müharibəsinin yeni fazasında HƏMAS yenə də yaddan çıxmadı - Livanda ölənlər arasında HƏMAS-ın komandirlərindən Şərif Əbu əl-Əmin hava hücum nəticəsində öldürüldü.

### Beynəlxalq münasibət: hər kəs atəşkəs çağırışı edir...

Beynəlxalq təşkilatların məsələ ilə bağlı münasibəti isə münaqişənin bitirilməsi, danışıqların başlanılması yönündədir. Konkret olaraq BMT hərbi əməliyyatların dayandırılması, girovların azad edilməsi, İsrailin hərəkətləri ilə bağlı araşdırmaların başlanılması, mülki şəxslərin, xüsusilə həssas qrupların müdafiəsi, humanitar yardım sektoruna təchizatın artırılması, Fələstin-İsrail münaqişəsinin "iki dövlət" prinsipi əsasında həll edilməsi kimi çağırışlar edir.

Əməliyyat başlayandan sonra isə Qərb ölkələrindən bir sıra yüksək vəzifəli dövlət xadimləri İsrailə həmrəylik səfərləri təşkil etdi - Almaniya kansleri Olaf Şoltz, ABŞ prezidenti Co Bayden, Böyük Britaniyanın baş naziri Rişi Sunak, Niderlandın o zamankı baş naziri, hazırda NATO-nun Baş katibi olan Mark Rutte, Çex Respublikasının Baş naziri Petr Fiala, Avstriyanın Federal Kansleri Karl Nehammer, Fransa prezidenti Emmanuel Makron və başqaları Təl-Əivi ziyarət edənlər arasında idi. Paralel olaraq İsrailin ABŞ-dan əlavə hərbi yardım istəyi yerinə yetirildi. 2023-cü il oktyabrın 8-i axşam ABŞ prezidenti Co Bayden İsrailə əlavə yardım əmri verdi və ilk yükün göndərildiyi elan edildi. Bu arada, Birləşmiş Ştatlar Aralıq dənizinin şərqinə - İsrailə daha yaxın olan əraziyə təyyarədaşıyan gəmisini (dəniz zərbə qrupunun xidmətinə) göndərdi. Oktyabrın 19-da USS Laboon (DDG 58) esminesi Qırmızı dənizdəki ABŞ Hərbi Dəniz Qüvvələri qrupuna qoşuldu.

Oktyabrın 12-də isə Almaniya İsrailə 2 böyük çoxməqsədli Heron TP İHA təqdim etdi - Olaf Şoltz dərhal atəşkəs və ya uzun fasilə çağırışları doğru hesab etmədiyini bildirdi, bunu HƏMAS-ın yenidən qurulmasına və yeni raketlər əldə etməsinə icazə kimi dəyərləndirdi. İsraili isə lazım olan yardımın Qəzza zolağına çatması və xarici vətəndaşların ölkəni tərk edə bilməsi üçün "humanitar fasilə" verməyə çağırdı.

2023-cü ilin noyabrın 11-jdə Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda vəliəhd şahzadə və baş nazir Məhəmməd bin Salman Əl Səudun sədrliyi ilə fövqəladə Ərəb-İslam zirvəsi çağırıldı. Yığıncağın səbəbi Qəzza zolağında müharibənin başlaması idi - toplakntı iştirakçıları tərəfləri atəşkəsə çabırdı. 2023-cü il oktyabrın 18-də isə İslam Əməkdaşlıq Təşkilatının (İƏT) təşəbbüsü ilə Baş Katibliyin Səudiyyə Ərəbistanında yerləşən Ciddə şəhərindəki mənzil-qərargahında İslam Zirvə Konfransının IX fövqəladə sessiyası təşkil olundu. Mövzu və praktik çağırış eyni idi - tərəfləri anlaşmağa dəvət edirdilər.

### Müharibənin arealı genişlənir...

**Amma görünən budur ki, Qəzza zolağındakı müharibə ilə bağlanan Yaxın və Orta Şərqdəki gərginliklər hələ nəticələnmir - əksinə, bu gün daha böyük coğrafiyanı əhatə edir. Artıq potensial olaraq bir sıra Şərq ölkələri, müsəlman dövlətləri anti-İsrail bəyanatlarını daha da kəskinləşdiriblər. Bu isə emosiyaların daha qabarıq şəkildə üzə çıxmasını şərtləndirir...**

***P.İSMAYILOV***

# İrəvanda milli təhsil tariximizdən

XIX əsrin əvvəllərində Cənubi Qafqazda baş verən siyasi proseslər müxtəlif sahələrdə olduğu kimi, təhsil və məktəb sahəsində də yeni meyillərin yaranmasına səbəb oldu. Artıq təlim müəssisəsi kimi fəaliyyət göstərən mollaxana və mədrəsələr getdikcə tənəzzülə uğrayır və öz yerini dünyəvi fənləri tədris edən məktəblərə verməyə məcbur olurdu. Cənubi Qafqazda başlanan bu maarifçilik hərəkatına İrəvanda da onlarla tərəqqipərvər azərbaycanlı ziyalı qoşularaq azərbaycanlı gənclərin təhsilə cəlb edilməsi uğrunda mübarizəyə başladılar. 14 yanvar 1832-ci ildə İrəvanda ilk qəza məktəbi açıldı. Bu qəza məktəbinin açılması bütövlükdə, bölgədə qabaqcıl maarifçilik ideyalarının yayılmasında əhəmiyyətli dərəcədə böyük rol oynamışdı. İrəvanda açılan bu ilk qəza məktəbində müxtəlif millətlərin uşaqları ilə yanaşı, azərbaycanlı uşaqlar da təhsil almağa başladılar. 14 yanvar 1832-ci ildə açılan İrəvan qəza məktəbi 1869-cu ildə progimnaziyaya, 31 may 1881-ci ildən isə beşsinifli gimnaziyaya çevrildi. 8 noyabr 1881-ci ildə isə İrəvanda daha bir təhsil müəssisəsi - İrəvan Müəllimlər Seminariyası açıldı.





İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin direktoru Əsgər Cəfərov tələbələri ilə birlikdə.1948



*İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin nəzdində açılmış altı aylıq hazırlıq kursunun tələbələri müəllimləri ilə birlikdə.Sağdan beşinci Bala Əfəndiyev, altıncı Mehdi Kazımov.1926*

Əhməd bəy Qazıyev, Əli Əşrəf Qazıyev, Həsən bəy Axund Molla Xəlil bəy oğlu Qazıyev, Fərəməz Mahmudbəyov, Məmməd bəy Əli bəy oğlu Mahmudbəyov, Xəlil Məmmədəliyev, Həsən Nəsirbəyov, ictimai xadim Saleh Məşədi Teymur oğlu Güllücinski, Ağa bəy Rəhim bəy oğlu Firudinbəyov, Abbas Allahverdi oğlu Qədimov, Mir Haşım bəy Vəzirov, Əli Sultanov, Fərrux Ağakişibəyov, İbrahim Səfi, Rəhim Xəlilov, Şıxəli bəy Firudinbəyov, Cəfər bəy Cəfərbəyov, İbrahim Şahtaxtlı, Şəmdin bəy Mahmudbəyov və başqaları İrəvan Müəllimlər Seminariyasının məzunları olmuşlar. 1910-cu ilə qədər müəllimlər seminariyasını 30 nəfər azərbaycanlı bitirmişdir. 1915-ci ildə seminariyada təhsil alan azərbaycanlıların sayı isə 22 nəfər olmuşdur.

Seminariyada rus dili, Azərbaycan dili, riyaziyyat, coğrafiya, idman və s. fənlərlə yanaşı, musiqi fənni də tədris edilirdi. 1885-ci ildə seminariyada musiqi fənnini tədris edən Simyon Nikolayeviç Kasradzenin rəhbərliyi altında 69 nəfər musiqi təhsili almışdır ki, onların arasında azərbaycanlılar da var idi.

İrəvan Müəllimlər Seminariyasının məzunları Cənubi Qafqazda milli maarifçiliyin inkişaf etdirilməsi istiqamətində böyük rol oynamışlar. Onlar azərbaycanlılar yaşayan bölgələrdə yeni məktəblərin açılmasında, azərbaycanlı balalarının təhsilə cəlb edilməsində fəal iştirak etmişlər. Bu maarif fədailəri daha çox İrəvanda, Naxçıvanda, Azərbaycanın müxtəlif bölgələrində milli intibah uğrunda böyük fədakarlıq göstərmişdilər.

Ümumiyyətlə, Qərbi Azərbaycanda xalqın maariflənməsində Abbasqulu bəy Şadlinskinin yaratdığı "Qırmızı tabor"un tərkibində erməni şovinistlərinə qarşı mübarizədə İrəvan Müəllimlər Seminariyasının və gimnaziyasının Azərbaycan şöbəsini bitirənlərin böyük xidmətləri olmuşdur. Araşdırmalardan o da məlum olur ki, 1937-ci ildə repressiyaya daha çox məruz qalanların əksəriyyəti də məhz İrəvan Müəllimlər Seminariyasının və İrəvan Gimnaziyasının, o cümlədən buradakı dünyəvi məktəblərin məzunları olmuşdur.

Yuxarıda adlarını qeyd etdiyimiz, milli intibaha yol açan maarif və mədəniyyət ocaqları 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri total qırğınlar zamanı öz fəaliyyətini dayandırdı. Bu maarif və mədəniyyət ocaqlarında çalışan azərbaycanlı ziyalıların, müəllimlərin, təhsil alan tələbələrin bir qismi həmin hadisələr zamanı qəddarcasına qətlə yetirildi, bir qismi isə xilas olmaq üçün öz tarixi və doğma yurdlarını tərk etməyə məcbur oldular.

1918-1920-ci illərdə ermənilər tərəfindən azərbaycanlıların kütləvi şəkildə soyqırıma məruz qalması İrəvan ədəbi-mədəni mühitinin tənəzzülə uğramasına səbəb oldu. Ədəbi-mədəni mühitin görkəmli nümayəndələrinin bir çoxu məhv edilmiş, bir hissəsi isə amansızcasına qətlə yetirilməkdən xilas olmaq üçün Türkiyə, İran, Azərbaycan, Orta Asiya və başqa ölkələrə üz tutmuşdular. Bununla da İrəvanda yaşlı nəslə mənsub ziyalılar qalmadığından nəsillər arasında sələf-xələf münasibətləri tamamilə pozulmuşdu. Şübhəsiz, bütün bunlar İrəvan ədəbi məktəbinin yaradıcı potensialına təsir etməyə bilməzdi.

1920-ci il noyabr ayının 29-da Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra, başqa respublikalarda olduğu kimi, burada da məktəb və maarif probleminə münasibət dəyişdi. Ermənistan İnqilab Komitəsi tərəfindən 1920-ci il, dekabr ayının 6-da bütün məktəblərin dövlətin tabeçiliyinə keçməsi, təhsilin ana dilində aparılması haqqında dekret imzalandı. 1921-ci il dekabr ayının 17-də Ermənistan Xalq Maarif Komissarlığının (EXMK) verdiyi əmrə əsasən, köhnə tipli məktəblər ləğv olunaraq, məzmunca yeni tipli sovet məktəblərinin təşkil olunmasına başlandı. Yeni tipli məktəblərin təşkili ilə əlaqədar olaraq, 1921-ci il aprel ayının 23-də EXMK-nin verdiyi əmrdə göstərilirdi ki, respublikada yaşayan azərbaycanlılar öz ana dillərində təhsil ala bilərlər.

Beləliklə, Azərbaycan məktəblərinin yeni məzmunda təşkili istiqamətində ilk addımlar atılaraq, birillik, ikiillik və xüsusi məktəblər ləğv edildi. Yeni tipli məktəblər təşkil olunaraq fəaliyyətə başladı. Yeni tipli məktəblər təşkil edildikdən sonra İrəvanda və eləcə də azərbaycanlılar yaşayan bütün bölgələrdə doğma dilimizdə təhsil ocaqları şəbəkəsinin genişlənməsi orada təhsil alan şagirdlərin sayının sürətlə artmasına səbəb oldu.

Azərbaycanlı şagirdlərin sayının sürətlə artmasının əsas səbəblərindən biri də 1918-1920-ci illərdə erməni daşnaklarının vəhşiliyi nəticəsində ən qəddar üsullarla qətlə yetirilməkdən xilas olmaq üçün doğma yurdlarını tərk etmiş soydaşlarımızın bir qisminin Qərbi Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra yenidən öz vətənlərinə qayıtması ilə bağlı idi.

Azərbaycan dilində təhsil ocaqları şəbəkəsinin genişləndirilməsi və idarə edilməsi, orada təhsil alan şagirdlərin sayının sürətlə artması isə müəllim kadrlarına olan tələbatı daha da artırırdı.

Azərbaycanlı ziyalılar tərəfindən milli məktəblərimiz üçün pedaqoji kadrlar hazırlayan tədris müəssisəsinin yaradılması ideyası 30 yanvar 1922-ci ildə Ermənistan Kommunist bolşevik Partiyasının birinci qurultayında qaldırılsa da, onların tələblərinə məhəl qoyulmamışdı. Deməli, Azərbaycan məktəbləri üçün müəllim çatışmazlığı problemini həll etmək məsələsi yenə də gündəlikdə qalırdı. Azərbaycan məktəbləri üçün pedaqoji kadrların hazırlanması məsələsi Ermənistan Kommunist bolşevik Partiyasının 1923-cü il martın 29-da keçirilən ikinci qurultayında yenidən qaldırılsa da, yenə də öz həllini tapmamışdı. Qurultayda Ermənistanın şovinist dairələri və eləcə də, Xalq Maarif Komissarı A.Mravyan Azərbaycan məktəblərini müəllim kadrları ilə təmin etmək üçün Azərbaycandan pedaqoji kadrların dəvət olunmasını daha məqsədəuyğun hesab edirdi. Ermənistanın şovinist dairələri Azərbaycan məktəbləri üçün yerli kadrların hazırlanması məsələsini müxtəlif vasitələrlə əngəlləyirdilər. Burada bolşevik cildinə bürünmüş erməni daşnaklarının ən iyrənc məqsədləri azərbaycanlıların savadlanmasının, mədəni tərəqqisinin və gələcək perspektivlərinin qarşısını hər vasitə ilə almaq idi. Azərbaycan məktəblərini pedaqoji kadrlarla təmin etmək üçün 1923-cü ilin ortalarında Azərbaycandan müxtəlif ixtisaslar üzrə müəllim kadrlarını dəvət edərək İrəvana və azərbaycanlıların yaşadığı digər bölgələrə pedaqoji fəaliyyət göstərməyə göndərirdilər. Əsl erməni xisləti Azərbaycan məktəblərində dərs deyən həmin müəllimlərə dözülməz şərait yaratdıqları üçün onlar da maddi və mənəvi sıxıntılara dözə bilməyib, Qərbi Azərbaycanı tərk etməyə məcbur olurdular.

Bütün bunlara baxmayaraq, görülən tədbirlər müəllim kadrlarına olan tələbatı ödəyə bilmirdi. Ermənistanın hakim şovinist dairələri Azərbaycan məktəbləri üçün müəllimlər hazırlayan müstəqil tədris müəssisəsinin açılmasını istəmir, Erməni Pedaqoji Texnikumunun nəzdində Azərbaycan şöbəsinin açılmasını təklif edirdilər. Müəllim çatışmazlığı probleminin aradan qaldırılması işini qaydaya salmaq üçün yerli kadrlar hazırlayan təhsil müəssisənin yaradılmasının təxirəsalınmaz tələbat olduğunu aydın dərk edən qeyrətli azərbaycanlı ziyalıların erməni şovinist dairələri qarşısında təkidli tələbi, ciddi səyi, siyasi və milli iradəsi sayəsində 1924-cü il oktyabr ayının 15-də İrəvan Müəllimlər Seminariyasının xələfi olan İrəvan Türk Pedaqoji Texnikumu açıldı.

Beləliklə, İrəvan Türk Pedaqoji Texnikumunun açılması ilə Azərbaycan məktəblərində müəllim kadrlarına olan ehtiyacın aradan qaldırılması işinin müəyyən dərəcədə qaydaya salınması sahəsində ilk addım atıldı. 1925-ci ildə bu təhsil ocağı "Nəriman Nərimanov adına İrəvan Türk Pedaqoji Texnikumu" adlandırıldı. Araşdırmalardan məlum olur ki, İrəvanda bütün Azərbaycan məktəblərində olan problemlər bu texnikumda da mövcud idi. Erməni Pedaqoji Texnikumunun binasında fəaliyyət göstərən bu maarif ocağı 30 nəfər tələbəni əhatə edən darısqal bir sinif və iki yataq otağından ibarət idi. Məlumdur ki, hər hansı bir təhsil müəssisəsinin normal və ahəngdar fəaliyyət göstərməsi üçün, ilk növbədə, onun müstəqil bina ilə təmin edilməsi, maddi-texniki bazasının yaradılması, tədris prosesi üçün əlverişli şəraitin olması vacib şərtdir. Yeni təşkil olunmuş İrəvan Türk Pedaqoji Texnikumunun tamamilə əlverişsiz və dözülməz bir şəraitdə fəaliyyət göstərməsi, dərslik və dərs vəsaitləri, tədris proqramları, laboratoriyalar, fənn kabinələri, yataqxana, yeməkxana və s. avadanlıqlarla təchiz edilməməsi, sözsüz ki, bu təhsil ocağının normal fəaliyyətini əngəlləyirdi. Ermənistanın "bolşevik" cildinə bürünmüş hakimiyyət orqanları nəinki texnikumda, eləcə də Azərbaycan məktəblərində mövcud olan problemlərin və çatışmazlıqların aradan qaldırılması üçün heç bir səy göstərmirdi. Erməni şovinistlərinin bütün sahələrdə azərbaycanlılara qarşı yürütdüyü qərəzli və ayrı-seçkilik siyasəti maarif sahəsində də özünü qabarıq şəkildə göstərirdi. Pedaqoji texnikumda ana dilində kitab, dərslik və dərs vəsaitlərinə, tədris proqramlarına və s. ləvazimatlara böyük ehtiyac olduğu halda, Ermənistan Xalq Maarif Komissarlığı bu tələbatı ödəmək istəmirdi. Demək olar ki, Ermənistanın Xalq Maarif Komissarı Aşot Hovanesyanın 1920-ci il 17 dekabr tarixli əmrində təhsilin ana dilində aparılması, məktəblərin dövlət ixtiyarına keçərək pulsuz olması, yeni tipli sovet məktəblərinin zəhmətkeş balalarının üzünə açıq olması - bütün bunlar ilk növbədə ermənilər üçün nəzərdə tutulurdu.

Sovet Ermənistanının daşnak hakimiyyəti Erməni Pedaqoji Texnikumunu müstəqil bina ilə təmin etdiyi, hərtərəfli diqqət və qayğı göstərdiyi halda, İrəvan Türk Pedaqoji Texnikumu bu diqqət və qayğılardan məhrum idi. Bu ayrı-seçkilik siyasəti bir tərəfdən Ermənistanda Sovet hakimiyyətinin öz spesifik xüsusiyyətlərinə malik olduğunu göstərirdisə, digər tərəfdən də erməni kommunistlərinin sözdə bir, əməldə tamamilə əks prinsiplərdən çıxış etməsində özünü büruzə verirdi, çünki başqa respublikalardan fərqli olaraq, Ermənistanda sosial mühitin, partiya həyatının, milli siyasətin iki tərəfi - görünən və görünməyən tərəfləri var idi.

Görünən tərəf - "proletar beynəlmiləlçiliyi", "bolşevizm ideyalarının həyata keçirilməsi", görünməyən tərəf - rəsmi Ermənistan rəhbərliyinin açıq surətdə həyata keçirdiyi şovinist, antitürk siyasəti idi.

Yarandığı ilk günlərdən İrəvan Türk Pedaqoji Texnikumu çox böyük çətinliklərlə üz-üzə qalmışdı. Qeyd etdiyimiz kimi, milli maarifimizin inkişafını hər vasitə ilə əngəlləməyə çalışan erməni şovinistlərinin bu sahədə nəzərdə tutduqları məkrli məqsədlərindən biri gələcəkdə İrəvan Türk Pedaqoji Texnikumunun fəaliyyətinin dayandırılmasına zəmin hazırlamaqdan ibarət idi.

Texnikumun ilkin fəaliyyət dövrünə nəzər saldıqda pedaqoji heyətin, tədrisin təşkili və s. sahələrdə müəyyən irəliləyişlərin baş verdiyi məlum olur. Qeyd etmək lazımdır ki, dünya şöhrətli alim, akademik Yusif Məmmədəliyev əmək fəaliyyətinə ilk dəfə bu texnikumda başlamışdı. O, 1926-1927-ci illərdə bu təhsil ocağında kimya, biologiya fənlərini tədris etmişdir. Onu da qeyd etmək lazımdır ki, İrəvan Türk Pedaqoji Texnikumu yalnız tədris müəssisəsi kimi fəaliyyət göstərmir, eyni zamanda, İrəvanda Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin inkişafında və formalaşmasında da böyük rol oynayırdı.

1927-ci ildə Ermənistan Proletar Yazıçılar Cəmiyyətinin nəzdində təşkil olunmuş Azərbaycan bölməsinin canlandırılması və genişləndirilməsində də bu tədris ocağının böyük xidmətləri olmuşdur.

1930-cu ildə ümumi icbari təhsilin tətbiq edilməsi istər məktəblərin, istərsə də orada təhsil alan şagirdlərin sayının sürətlə artmasına təkan verdi. Müəllim kadrları çatışmadığından pedaqoji texnikumun tələbələri növbə ilə İrəvan qəzasında fəaliyyət göstərən 1-ci dərəcəli türk məktəblərində, kəndli evində, qadınlar klubunda müəllim kimi fəaliyyət göstərirdilər. Azərbaycan məktəblərində müəllim kadrlarına olan ehtiyacı, qismən də olsa, aradan qaldırmaq üçün hətta İrəvan 9 illik türk məktəbini bitirənləri də müəllim kimi işləməyə göndərirdilər.

Bütün bunlara baxmayaraq, Azərbaycan məktəblərində müəllim kadrlarına böyük tələbat olduğu halda, yüzlərlə azərbaycanlı müəllim və tələbələrə "bəy", "xan", "mülkədar", "qolçomaq", "kulak", "mövhumatçı", "millətçi" və s. damğaları vurulur və onlar təhsil müəssisələrindən xaric edilirdilər. Hətta azərbaycanlı ziyalılar nəinki repressiyaya, həmçinin fiziki terrora da məruz qalırdılar.

Ümumiyyətlə, inqilabdan sonra İrəvanda Azərbaycan əbədi-mədəni mühitinin canlanması, inkişafı və formalaşmasında İrəvan Türk Pedaqoji Texnikumunun müəllim və tələbə kollektivinin müstəsna xidmətləri olmuşdur.

Erməni şovinizmi əhatəsində qalarkən üzləşdiyi bütün çətinliklərə, maneələrə baxmayaraq, İrəvan Türk Pedaqoji Texnikumu təhsil sistemində öz uğurları ilə mövqeyini daha da möhkəmləndirə bilmişdi. Bu texnikum Cənubi Qafqazda ali məktəb səviyyəsində böyük uğurlar qazanmışdı. İrəvan Türk Pedaqoji Texnikumu 1934-cü ildə Ümumittifaq texnikumları yarışında birincilik qazanaraq, yeddi min manat pul mükafatına layiq görülmüşdü.

1935-ci ildə Məmməd Səid Ordubadi, Mikayıl Müşfiq, Mehdi Hüseyn və başqalarından ibarət nümayəndə heyəti İrəvanda səfərdə olarkən pedaqoji texnikumun müəllim və tələbə kollektivi ilə görüş keçirmişlər. M.S.Ordubadi texnikumun müəllim və tələbə heyəti qarşısında çıxış edərkən bu tədris ocağının fəaliyyətini yüksək qiymətləndirərək demişdir: "İrəvan Türk Pedaqoji Texnikumu bizdə böyük intibahlar yaratdı. Türk mədəniyyətinin nə qədər böyük inkişafda olduğunun canlı şahidi olduq".

Ümumiyyətlə, Azərbaycanın bir çox görkəmli ziyalıları - Cəlil Məmmədquluzadə, Əli Nazim, Mir Cəlal, Yusif Vəzir Çəmənzəminli, Sabit Rəhman, Səməd Vurğun, Əbülhəsən, Nigar Rəfibəyli, Mikayıl Rəfili, Vəli Xuluflu, Süleyman Rüstəm və başqaları bu təhsil ocağının qonağı olmuşlar. İrəvan Türk Pedaqoji Məktəbi yarandığı gündən 1947-ci ilin ortalarına qədər 1370 nəfər orta ixtisas təhsilli pedaqoji kadr hazırlamışdır. Pedaqoji məktəbin fəaliyyətini ardıcıl izlədikdə aydın olur ki, müxtəlif vaxtlarda bu təhsil ocağına rəhbərlik etmiş Mehdi Kazımovun, Bəhlul Yusifovun, Həbib Məhəmmədzadənin, Əsgər Cəfərovun və məktəbin müəllimlərindən Məmməd Həsənovun, Əyyub Babayevin, Rəziyyə İsmayılovanın, Sadiq Heydərzadənin, Zərri Qurbanovanın, Təvəkkül Kərimovun, Həbib Əkbərovun, Hüseyn Əliyevin, Cəfər Ələkbərovun, Şura Fərhadovanın, Surə Babayevanın, Raziyə Abdullayevanın və başqalarının fədakar əməyi sayəsində tələbələrin yüksək təhsil səviyyəsi təmin edilirdi.

Texnikumun məzunu olmuş görkəmli alim, akademik Budaq Budaqov milli pedaqoji kadrların hazırlanması işində böyük xidmətləri olmuş bu təhsil ocağı haqqında yazır: "İrəvan Pedaqoji Məktəbi, oraya toplanmış müəllimlərin pedaqoji ustalığı, ensiklopedik biliyi və hazırlanan kadrların savadının pedaqoji məktəb səviyyəsindən universitet tələbələri səviyyəsinə qədər qaldırılması bu məktəbə, haqlı olaraq, şərəf, şöhrət, nüfuz gətirmişdi. İrəvan Türk Pedaqoji Məktəbinə qəbul olunmaq ən yüksək müsabiqəli ali məktəbə qəbul olunmaqdan çətin idi. Məktəbdə olan daxili intizam, yığcamlıq, yüksək təhsil vermək ənənəsi, yaxşı oxuyanların hörmətini layiq olduğu səviyyəyə qaldırmaq bizi valeh edirdi".

Azərbaycan elminin görkəmli nümayəndələrindən olan akademik Budaq Budaqov, AMEA-nın müxbir üzvü Zərifə Budaqova, professorlar Nəriman Əliyev, Yusif Yusifov, Nəzər Paşayev, Fərhad Fərhadov, Əli Fərəcov, Süleyman Məmmədov, Abbas İsmayılov, Qurban Bayramov, Həmid Əliyev, Cəfər Cəfərov, yazıçı və icitmai xadim Məhərrəm Bayramov, filologiya elmləri namizədi Həmid Əfəndiyev, fizika-riyaziyyat elmləri namizədi, dosent Qasım Mustafayev, filologiya elmləri namizədi Sabir Səfərov, pedaqoji elmlər namizədi, dosent Nəriman Kazımov, şair Abbas Tahir, əməkdar rəssam Cabbar Quliyev, hüquq elmləri namizədi Nəriman Yusifov, filologiya elmləri namizədi, uzun müddət "Azərbaycan məktəbi" jurnalının baş redaktoru olmuş Zəhra Əliyeva, filologiya elmləri namizədi, dosent Kövsər Tarverdiyeva, ictimai xadim Həbib Həsənov, ictimai xadim Qəşəm Aslanov, qabaqcıl təhsil işçiləri Tapdıq Novruzov, Tapdıq Əmiraslanov, əməkdar müəllim Şəfiqə Məhərrəmova və bir çox başqaları bu məktəbin məzunları olmuşlar.

1949-cu ilə qədər fəaliyyət göstərən İrəvan Türk Pedaqoji Məktəbi yalnız tədris müəssisəsi deyil, eyni zamanda, Qərbi Azərbaycanda ədəbiyyatımızın, mədəniyyətimizin, incəsənətimizin inkişafında, formalaşmasında və qorunmasında çox böyük rol oynayan bir maarif ocağı olmuşdur. Bolşevik cildinə girmiş erməni daşnaklarının məkrli siyasəti nəticəsində təhsil tariximizin ən şanlı səhifələrindən birini təşkil edən böyük, şərəfli, tarixi bir yol keçmiş bu təhsil ocağı da kollektiv şəkildə deportasiyaya məruz qalaraq, 1949-cu ildə Azərbaycanın Xanlar rayonuna köçürülmüş, 1972-ci ilə qədər burada fəaliyyət göstərmişdir.

Onu da xüsusi qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin 30 avqust, 2006-cı ildə İrəvan Azərbaycan Dram Teatrının 125 illik yubileyinin, 29 dekabr, 2006-cı ildə İrəvan mahalı, Uluxanlı məktəbinin 125 illik yubileyinin keçirilməsi haqqında sərəncamları, o cümlədən Qarabağın müxtəlif bölgələrinə etdiyi səfərlər zamanı İrəvan, Göyçə, Zəngəzur və digər qədim yurd yerlərimizlə bağlı səsləndirdiyi fikirlər, eyni zamanda, toponimlərimizlə bağlı ortaya qoyduğu konkret faktlar - "Qeqarkunik yox - Göyçə", "Vardenis yox - Basarkeçər", "Yerasx yox - Arazdəyən", "Sünik yox - Zəngəzur", "Tavuş yox - Dilican", "Vayoçdzor yox - Dərələyəz", "Lori yox - Dağ Borçalı", "Ararat yox - Zəngibasar" deyə bildirməsi bir daha təsdiq edir ki, tarixin danılmaz və inkaredilməz həqiqətlərini, milli-mənəvi dəyərlərimizi heç vaxt unutmamalıyıq!

Bu il İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin 140 ili tamam olur. Milli təhsil tariximizdə böyük, şərəfli bir tol keçmiş ictimai-pedaqoji fikir tariximizə öz önəmli töhfələrini vermiş bu təhsil ocağının 140 illik yubileyinin keçirilməsi xalqımızın ədəbi-mədəni, maarifçi irsinə ən böyük ehtiramın nümunəsi olardı.

**_Könül Həsənova,_**
**_filologiya üzrə fəlsəfə doktoru, dosent_**

**_Cəlal Allahverdiyev,_**
**_filologiya üzrə fəlsəfə doktoru, dosent_**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# Meymunçiçəyi ilə bağlı son vəziyyət...

*Yeganə BAYRAMOVA*

Son zamanlar dünya yeni bir xəstəliklə-meymunçiçəyi virusu ilə qarşı-qarşıyadır. Hətta virus bir çox ölkədə sürətlə yayılmağa davam edir. 2024-cü il yanvarın 1-dən sentyabrın 22-dək Afrikada 31,427 şübhəli və ya təsdiqlənmiş meymunçiçəyi xəstəsi, bu xəstəlikdən 844 ölüm halı müəyyən edilib. Bu barədə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) məlumat yayıb.

**Yüksək xəbərdarlıq səviyyəsi elan olunub**

Bu ilin 9 ayında Afrikada 35 mindən çox şəxs meymunçiçəyi ("mpox") virusuna yoluxub.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, bu müddət ərzində virusa yoluxan 996 nəfər dünyasını dəyişib. Sentyabrın 23-dən 29-dək olan həftə ərzində virusa yoluxanların sayı 4 min 098, ölənlərin sayı isə 156 nəfər artıb.

İlin əvvəlindən həkimlər Konqo Demokratik Respublikasında "mpox" şübhəsi ilə çoxlu sayda virusa yoluxma və ölüm halları müəyyən ediblər - müvafiq olaraq 30 min 766 və 990. Burundi ikinci yerdədir, ilin əvvəlindən 1368 nəfərdə meymunçiçəyi şübhəsi var. Bu ölkədə ölüm halı qeydə alınmayıb.

Eyni zamanda, sentyabrın 16-dan 22-dək yoluxma sayı 2 085 nəfər artıb, o cümlədən 34 nəfər ölüb. Həftə ərzində 402 yoluxma faktı laboratoriyada təsdiqini tapıb.

İlin əvvəlindən epidemiyanın episentri olan Konqo Demokratik Respublikasında meymunçiçəyi virusuna 27,103 şübhəli və ya təsdiqlənmiş yoluxma müəyyən edilib, 838 xəstə dünyasını dəyişib. Ümumilikdə, 2022-ci il yanvarın 1-dən 2024-cü il avqustun 31-dək 123 ölkədə 106 310 təsdiqlənmiş meymunçiçəyi virusu, o cümlədən 234 ölüm halı qeydə alınıb.

Virusun yayılması Ümumdünya Səhiyyə Təşkilatını ən yüksək xəbərdarlıq səviyyəsi olan beynəlxalq narahatlıq doğuran ictimai səhiyyə fövqəladə vəziyyəti (Usppi) elan etməyə vadar edib. Eyni zamanda, Konqoda ən yüksək xəbərdarlıq səviyyəsi elan olunub.

Virus ilk dəfə meymunda aşkar edilib və 1970-ci ildən bəri 10 Afrika ölkəsində epidemiyalar qeydə alınıb. Afrikadan kənarda xəstəliyin ilk yayılması halı 2003-cü ildə ABŞ-da baş verib. O vaxt virus xırda məməlilərdən yoluxan çöl itləri ilə yaxın təmas vasitəsilə yayılıb. Qeydə alınan 81 yoluxma nəticəsində ölən olmayıb.

İndiyədək məlum olan ən böyük epidemiya 2017-ci ildə Nigeriyada baş verib. Burada 172 şübhəli hadisə olub. Yoluxanların 75 faizi 21-40 yaş arası kişilər olub.

**5000 PCR dəsti gətiriləcək**

Bir müddət əvvəl Azərvbaycana meymunçiçəyi testlərinin gətirilməsi ilə bağlı xəbərlər yayılmışdı. Belə ki, Tibbi Ərazi Bölmələri İdarəetmə Birliyi (TƏBİB) meymunçiçəyi virusunun aşkarlanması üçün növbəti dəfə PCR dəstləri alacaq. Qurum PCR kitlərinin satın alınması ilə bağlı tender elan edib. Beləliklə, 5000 dəst PCR dəstinin sifariş edildiyi bildirilib.

Qeyd edək ki, meymunçiçəyi virusunun laborator müayinəsi üçün testlər və xəstəliyə qarşı lazımi dərman preparatları ilk dəfə olaraq avqust ayında Azərbaycana gətirilib.

**Azərbaycanda şübhəli hal baş verib?**

Ölkəmizdə bu virusa yoluxma ehtimalı olan kiminsə olub-olmaması təşviş doğuran məsələlərdən biridir. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyindən bildirilib ki, bu günə qədər meymunçiçəyi ilə bağlı şübhəli hallar qeydə alınmayıb: "Belə hallar qeyd edildiyi təqdirdə Ümumdünya Səhiyyə Təşkilatının təsdiq etdiyi qaydalara əsasən, həmin şəxslər test olunaraq laborator diaqnostika aparılacaq".

**Təşvişə ehtiyac varmı?**

Mövzu barədə "Yeni Azərbaycan"a açıqlama verən infeksionist Vüqar Cavadzadənin sözlərinə görə, xəstəlik əksər hallarda mülayim formada olur, bəzən su çiçəyinə bənzəyir və bir neçə həftə ərzində öz-özünə yox olur. Lakin xəstəlik bir çox hallarda daha kəskin keçə bilər: "Virus bədənə dəri sıyrıqları, tənəffüs yolları, göz, burun və ya ağız vasitəsilə yol tapa bilər. Həmçinin meymun, siçovul və dələ kimi yoluxmuş heyvanlar, yataq dəsti və paltar kimi əşyalar vasitəsilə də yayılması mümkündür.

Aidiyyəti qurumlar tərəfindən xəstəliklə bağlı testlərin alınmasını, həmçinin maarifləndirici məlumatların verilməsini yüksək qiymətləndirmək lazımdır. Ölkəmizdə yoluxma hadisəsi qeydə alınmayıb və şübhəli hal da yoxdur. Lakin bu, o demək deyil ki, ehtiyatı əldən verməliyik. Müvafiq testlərin alınması, informasiyaların verilməsindən məqsəd təşviş yaratmaq yox, sadəcə insanları məlumatlandırmaqdır".

**Xəstəliyin müalicəsi yoxdur...**

İnfeksionist meymunçiçəyinin müalicəsinin olmadığını, lakin infeksiyanın qarşısının alınması ilə onun yayılmasına nəzarət etməyin mümkün olduğunu bildirib: "Bu infeksiyaya qarşı təbii çiçək peyvəndinin 85 faiz təsirli olduğu təsdiqlənib. Böyük Britaniya çiçək xəstəliyinə qarşı peyvəndin dozasını alıb, lakin neçə doza vurula biləcəyi bəlli deyil. İspaniyanın da minlərlə vaksin dozası sifariş etməyə hazırlaşdığı bildirilir".



## Nə dərəcədə təhlükəlidir?



# Atlantik okeanının dibində nəhəng asteroid krateri aşkarlanıb

Böyük Britaniya, ABŞ və Almaniyadan olan beynəlxalq alimlər qrupu Afrika sahillərində Atlantik okeanının dibində yerləşən asteroid kraterinin 3D şəkillərini əldə edib.

AZƏRTAC xəbər verir ki, tədqiqat "Communications Earth & Environment" elmi jurnalında dərc olunub.

Qeyd olunub ki, diametri təxminən doqquz kilometr olan krater təxminən 66 milyon il əvvəl böyük meteorit zərbəsinin nəticəsidir.

Alimlər bildiriblər ki, meteoritin diametri təxminən 450-500 metr olub. O, saatda 72 min kilometr sürətlə Yerə cüzi bucaq altında düşüb.

Mütəxəssislərin fikrincə, yeni məlumatlar asteroidin düşməsindən sonrakı ilk dəqiqələrin şəklini yenidən yaratmağa imkan verib.

Partlayışın enerjisi süxurları əridib və minlərlə kvadrat kilometr ərazini əhatə edən dağıntı zonası yaradıb. Bu kataklizm həm də Atlantik okeanını keçən 800 metrlik sunaminin yaranmasına səbəb olub.

Tədqiqatçılar qeyd ediblər ki, krater Meksikanın Yukatan yarımadasının sahillərində 180 kilometr uzunluğundakı Çikxulub krateri ilə təxminən eyni vaxtda əmələ gəlib. Çikxulub Yer kürəsinin 10 kilometrlik meteoritlə toqquşmasından sonra yaranıb və bu, dinozavrların, Yerdəki əksər həyat formalarının məhvinə səbəb olub.

Bundan əvvəl elm adamları Yamalda əbədi buzlaqda kraterlərin yaranmasının səbəbini açıqlamışdılar.




# "Bakcell" "INMerge" İnnovasiya Sammitinin əsas tərəfdaşıdır!

İnnovasiya və sürət lideri "Bakcell" regionun ən böyük innovasiya sammiti olan "INMerge" İnnovasiya Sammitinin əsas tərəfdaşıdır. Bu tərəfdaşlıq sayəsində "Bakcell" Azərbaycanda tətbiq etdiyi innovativ texnologiyaları və süni intellekt əsaslı həlləri təqdim edəcək.

"Bakcell"in baş icraçı direktoru Klaus Müller "INMerge" İnnovasiya Sammitində çıxış edəcək.

Sammitdə ölkənin və dünyanın aparıcı şirkətlərinin rəhbər və nümayəndələri, investorlar, yerli və xarici startapların iştirakı ilə təqdimatlar, panel müzakirələri, təqdimatlar və müxtəlif seminarlar keçiriləcək.

Oktyabrın 10-11-i tarixlərində baş tutacaq "INMerge" İnnovasiya Sammitinin məqsədi innovasiya ekosisteminin inkişafına töhfə vermək, startaplar və investorları bir araya gətirərək onlara əməkdaşlıq üçün fürsət yaratmaq, eləcə də innovasiya ekosisteminin bütün iştirakçıları arasında fikir və təcrübə mübadiləsi üçün platforma qurmaqdır.

**"Bakcell" haqqında**

"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda "Bakcell" üç milyondan çox müştərini yüksək keyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan innovasiyalar və həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verir və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir.

"Bakcell" müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

*İdman*

## Badmintonçularımız beynəlxalq turnirdə bürünc medal qazanıblar



Azərbaycan badmintonçuları Uqandanın paytaxtı Kampala şəhərində keçirilən beynəlxalq turnirdə uğurlu çıxış ediblər.

Azərbaycan Badminton Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, yarışda yarımfinala kimi irəliləyən Era Maftuha üçüncü yeri tutub. O, finalın bir addımlığında turnirin qalibi olan Malayziya təmsilçisi Lo Çşi Veyə 3 setdə məğlub olub.

İdmançımız yarımfinala kimi isə Uqanda, Birləşmiş Ərəb Əmirlikləri və Maldivi təmsil edən rəqibləri ni üstələyib.

Kişi badmintonçuların qoşa yarışında Aqil Qəbilov və Diki Panqestu Malta, Şotlandiya və İtaliyanı təmsil edən badmintonçuları mübarizədən kənarlaşdırmağı bacarıb. Yarımfinala yüksəlməklə bürünc medalı təmin edən Aqil və Diki 1/2 finalda hindistanlı rəqiblərinə hər iki setdə uduzub.

## Azərbaycanın güllə atıcısı dünya çempionu olub

Azərbaycanın güllə atıcısı İmran Qarayev Perunun Lima şəhərində keçirilən gənclər arasında dünya çempionatının qızıl medalını qazanıb.

"Report" xəbər verir ki, 50 metr məsafəyə atəş açmada idmançımız finalda 552 xalla Rumıniya təmsilçisini geridə qoyaraq mundialın qalibi olub.






## Gimnastlarımız beynəlxalq turnirdə 1 qızıl, 1 bürünc medal qazanıblar

Azərbaycan gimnastları Böyük Britaniyanın Telford şəhərində keçirilən beynəlxalq turnirdə 1 qızıl və 1 bürünc medal qazanıblar.

"Report" xəbər verir ki, tamblinq üzrə yarışda idmançılarımızdan Aleksey Karataşov gənclər kateqoriyasında qızıl, Bilal Qurbanov isə böyüklər arasında bürünc medala sahib çıxıblar.

## Yunanıstanlı Avropa çempionu Bakıya niyə gəlib?

Avarçəkmə üzrə Pekin-2008 Yay Olimpiya Oyunlarının gümüş mükafatçısı, ikiqat Avropa çempionu və dünya ikincisi Dimitrios Mouyiosun Bakıya səfərinin məqsədi bəlli olub.

Bu barədə "Report"a Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının mətbuat katibi Vüsal Qurbanov məlumat verib.

Onun sözlərinə görə, D.Moiyuos AKAF-ın son illərdə gördüyü işlər, keçirilən beynəlxalq yarışlar və qazanılan nəticələrlə tanış olub:

"O, Bakıya Milli Olimpiya Komitəsinin dəvəti ilə gəlmişdi. Səfər çərçivəsində bizim federasiyanın binasına da baş çəkdi. "Bakı" klubunun fəaliyyəti ilə tanış oldu. Yaradılan şəraitdən razı qaldığını bildirdi. Xüsusən də 2028-ci ildə Los-Ancelesdə keçiriləcək olimpiadaya ilk dəfə daxil edilən çimərlik sprintinin ("beach sprint") Azərbaycanda inkişafı üçün hər cür şərait olduğunu vurğuladı. Həmçinin Yunanıstanla Azərbaycanın Avarçəkmə və Kanoe Federasiyaları arasında əlaqələrə öz töhfəsini verməyə, təcrübə mübadiləsinin aparılmasına çalışacağını bildirdi".



Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4804
Sifariş: 2337
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Nardar BAYRAMLI